# TRAMPIN YAXIN ŞƏRQ TRİUMFU



**Tramp Yaxın Şərqi inqilablarla deyil, biznes vasitəsilə fəth etmək istəyir. Körfəz ölkələri ilə danışıqlarda əldə olunan iki trilyon dollarlıq sazişlər nailiyyət kimi qiymətləndirilir.**

- Tramp ABŞ iqtisadiyyatının sağlamlaşdırılmasına köklənib, bunun üçün ona pul lazımdır. Körfəz monarxiyaları da okeanın o tayına böyük investisiya axınları təmin edə bilər, ona görə də Ağ Ev rəhbərinin ABŞ biznesinin elitasını özü ilə Ər-Riyada aparması təəccüblü deyildi.

- Tramp açıq bəyan etdi ki, səfərə ərəb ölkələrindən ABŞ iqtisadiyyatına investisiyalar cəlb etmək üçün gedir. Bu mənada yekunda səfər zəfərə çevrilib. Ümumilikdə, ABŞ tək Qətərlə 1,2 trilyon dollar məbləğində iqtisadi əməkdaşlıq sazişi bağlayıb.

SƏHİFƏ 5-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

24 MAY ŞƏNBƏ 2025 № 19 (4220) Qiyməti - 60 qəpik www.kaspi.az



## TÜRK DÜNYASI BAKIDA BİR ARAYA GƏLƏCƏK

- Prezident İlham Əliyev: “Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur”.

SƏHİFƏ 2-də



## KƏNGƏRLİ SAKİNLƏRİ DOĞMA YURDA QAYIDIR

- Bakıdan yola salınan köç karvanı Ağdamın Kəngərli kəndinə çatıb. “Report” xəbər verir ki, bu mərhələdə köçürülən 232 nəfərdən ibarət 49 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim olunub.

SƏHİFƏ 2-də



## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN YARALI YERİ

- Müasir dövrdə ali təhsil müəssisələrinin yalnız bilik verən deyil, həm də innovasiya yaradan və sənaye ilə əməkdaşlıq edən strukturlara çevrilməsi vacib şərtlərdən sayılır.

SƏHİFƏ 6-da

### TARİXİ VƏ COĞRAFİ KÖKLƏRDƏN DOĞAN ORTAQLIQ

# AVRASİYA GEOSİYASƏTİNDƏ BÖYÜK OYUNÇU



Prezident İlham Əliyevin Budapeştə səfəri Azərbaycan-Macarıstan əlaqələri baxımından əhəmiyyətli oldu. Macarıstanın Türk Dövlətləri Təşkilatında müşahidəçi statusundakı təmsilçiliyi, Azərbaycanla əlaqələrə verdiyi yüksək qiymət Avropa İttifaqının da manevr imkanlarını artırır.

**YENİ DÜZƏNDƏ STRATEJİ ƏLAQƏLƏR**

Azərbaycanın məqsədi TDT-nin təmsilçilik arealını böyütmək, yeni düzəndə möhkəm strateji əlaqələr qurmaqdır. İlham Əliyevin Viktor Orbanla mətbuata birgə bəyanatında və TDT-nin qeyri-rəsmi sammitindəki verdiyi mesajların məzmunu bu cür oxuna bilər.

**MACARISTANLA GÜCLƏNƏN ƏLAQƏLƏR**

Azərbaycan Macarıstan vasitəsilə Avropa İttifaqının TDT-yə olan marağının güclənməsinə səbəb olan strategiya izləyir. Göründüyü kimi, Azərbaycan-Macarıstan əlaqələri enerji sektoru, qeyri-neft sahəsindəki əməkdaşlıqla bərabər, geosiyasətdə müştərək maraqlara istiqamətlənib.

SƏHİFƏ 3-də

### “Həkim olmağımız atamın arzusu idi”

# “ÇALIŞIN, MƏNƏ RƏHMƏT OXUTDURUN...”



“Atam çox şərəfli həyat sürdü. Müslüm Maqomayev, Yaşar Nuri dünyasını dəyişəndə nə qədər ağladı. “Cavanlar ölür, mən yaşamağa utanıram...” - deyirdi. Anam da “hərənin bir alın yazısı var, Allah onlara o ömrü yazıb...” - deyə təsəlli verirdi”. “Doğmalar” rubrikasındakı budəfəki qonağımız görkəmli kamança ifaçısı, Xalq artisti Habil Əliyevin qızı, Xətai rayonundakı 6 saylı Şəhər Poliklinikasının həkimi Kəmalə Habilqızı oldu. O, qəzetimizə atasının sənətinin böyüklüyündən, övladlarına necə valideyn olmasından danışdı.

SƏHİFƏ 8-9-da



## ƏDALƏTİN TƏLƏB ETDİYİ HÖKM

- Bakı ilə Tehran arasında siyasi münasibətlər normallaşır, iqtisadi, hərbi, mədəni və sair sahələrdə birgə layihələr reallaşdırılır. Lakin bu proses əslində daha əvvəl başlaya bilərdi.

SƏHİFƏ 4-də



## ARTIQ YAĞANDA DƏRD VERİR YAĞIŞ DA...

- Havaların yağışlı keçməsi bölgələrimizdə ciddi fəsadlara yol açıb. Quba və Qusar ərazisində yağan yağışlar əkin sahələrinə ciddi ziyan vurub. Bunun məhsuldarlığa mənfi təsir edəcəyi proqnozlaşdırılır.

SƏHİFƏ 11-də



## ZİRVƏDƏN AŞAĞI BAXANDA...

- Həmyerlimiz Vəfa Musayeva sadəcə bir ad deyil, o, iradənin, inadın və milli qürurun simvoluna çevrildi. Bir neçə gün əvvəl o, Azərbaycanın adını səma ilə yer arasında, 8848 metrlik yüksəkliyə - Everestə yazdı.

SƏHİFƏ 16-da



**Qazaxıstanlı nazir təyyarə qəzasından danışdı**

SƏHİFƏ 2-də



**Kombi erası başa çatır?**

SƏHİFƏ 15-də



**Yerli qaz sayğaclarında ciddi problem yaşanmayıb**

SƏHİFƏ 10-da



**Stomatoloqlar TƏBİB-dən narazıdır**

SƏHİFƏ 12-də



**Böyük perspektivlər vəd edən sahə**

SƏHİFƏ 14-də



## Qazaxıstanlı nazir təyyarə qəzasından danışdı

Azərbaycan Hava Yollarına (AZAL) məxsus təyyarənin qəzasının araşdırılması toplanmış materialların tədqiqatı mərhələsindədir. “Report”un məlumatına görə, bu barədə Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev Senatda bildirib.

“Birinci mərhələ materialların toplanması idi. O mərhələ başa çatıb. İndi ikinci mərhələ - toplanmış materialların tədqiqatı aparılır və hazırda araşdırma mərhələsindəyik. Bu çərçivədə yerli və xarici mütəxəssislər ICAO ilə birlikdə Bakıda, Qroznıda, həmçinin Rostov-na-Donda olublar”, - M.Karabayev qeyd edib.

Nazir əlavə edib ki, materiallar tədqiqatlar üçün Qazaxıstandadır.



## Kəngərli sakinləri doğma yurda qayıdır

Bakıdan yola salınan köç karvanı Ağdamın Kəngərli kəndinə çatıb. “Report” xəbər verir ki, bu mərhələdə köçürülən 232 nəfərdən ibarət 49 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim olunub. Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda ümumilikdə, 40 mindən çox insan yaşayır.

# TÜRK DÜNYASI BAKIDA BİR ARAYA GƏLƏCƏK



Prezident İlham Əliyev: “Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur”.

Prezident İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstanın daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.

### “BAKI ZİRVƏSİNDƏ ÖNƏMLİ QƏRARLAR QƏBUL EDİLƏCƏK”

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib ki, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilib: “Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək”.

### “İQTİSADİ SAHƏDƏ ÇOX BÖYÜK POTENSİALIMIZ VAR”

Dövlət başçısı bildirib ki, təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları göz önündədir. Biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır: “Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq”.



### “DAXİLİ SABİTLİK OLSA DA TƏHDİDLƏR VAR”

Prezident İlham Əliyev qeyd edib ki, müəyyən dövr qardaş dövlətlər özlərindən asılı olmayan səbəblərə görə bir-birilərindən ayrı düşüblər. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi onları yenə də bir araya gətirdi: “Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir.

O ki qaldı, daxili işlər orqanlarının birgə fəaliyyətinə, təbii ki, buna böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni, heç kim bundan sığortalı deyil. Ona görə də daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması, əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir”.

### “ƏSAS MƏQSƏDİMİZ TƏŞKİLATI DAHA DA GÜCLƏNDİRMƏKDİR”

Dövlət başçısı bildirib ki, əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir: “Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir”.

# AVRASİYA GEOSİYASƏTİNDƏ BÖYÜK OYUNÇU



**Prezident İlham Əliyevin Budapeştə səfəri Azərbaycan-Macarıstan əlaqələri baxımından əhəmiyyətli oldu. Macarıstanın TDT-də müşahidəçi statusundakı təmsilçiliyi, Azərbaycanla əlaqələrə verdiyi yüksək qiymət Avropa İttifaqının da manevr imkanlarını artırır.**



AQŞİN KƏRİMOV

Bu həftə Azərbaycanın xarici siyasət gündəmi Prezident İlham Əliyevin Macarıstana səfəri, bu ölkənin Baş naziri Viktor Orbanla görüşü, ardınca isə Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşündə iştirakı ilə diqqətdə oldu.

Azərbaycanın məqsədi TDT-nin təmsilçilik arealını böyütmək, yeni düzəndə möhkəm strateji əlaqələr qurmaqdır. İlham Əliyevin Viktor Orbanla mətbuata birgə bəyanatında və TDT-nin qeyri-rəsmi sammitindəki verdiyi mesajların məzmunu bu cür oxuna bilər. İlham Əliyevin Macarıstanda keçirdiyi görüşlər və verdiyi bəyanatlar Azərbaycanın xarici siyasət strategiyasındakı güclənən mövqeni nümayiş etdirir. Onun irəli sürdüyü konsepsiya ümumilikdə Avrasiya geosiyasətindəki Azərbaycanın yüksələn nüfuzuna istinad edir. Bundan əlavə, Azərbaycanın beynəlxalq nəqliyyat koridorlarında, o cümlədən Orta Dəhlizdəki rolu cəlbedicidir.

### GÜCLƏNDİRİLMİŞ VƏ İNTENSİVLƏŞDİRİLMİŞ MÜNASİBƏTLƏR SİSTEMİ

Diqqət yetirsək, Azərbaycan-Macarıstan əlaqələri gücləndirilmiş və intensivləşdirilmiş münasibətlər sisteminə malikdir. Macarıstanın TDT-də müşahidəçi statusundakı təmsilçiliyi, Azərbaycanla əlaqələrə verdiyi yüksək qiymət Avropa İttifaqının da manevr imkanlarına töhfə verir. Hərçənd ki, Qərbin bəzi dairələrində Viktor Orbanın Azərbaycanla əlaqələri yüksək qiymətləndirməsi qısqanclıqla qarşılanır. Buna baxmayaraq, Macarıstan Azərbaycanın Avropanın təhlükəsizliyində, o cümlədən enerji təhlükəsizliyindəki rolunu özü üçün uyğun sayır. Bu, Qərbdə Azərbaycana qarşı formalaşmış müqavimət oxlarının zərərsizləşdirilməsində yardımçı olur.

### AZƏRBAYCANLA MACARISTANIN ÜZLƏŞDİYİ OXŞAR ÇAĞIRIŞLAR

Eyni zamanda Azərbaycan Macarıstan vasitəsilə Avropa İttifaqının TDT-yə olan marağının güclənməsinə səbəb olan strategiya izləyir. Göründüyü kimi, Azərbaycan-Macarıstan əlaqələri enerji sektoru, qeyri-neft sahəsindəki əməkdaşlıqla bərabər geosiyasətdə müştərək maraqlara istiqamətlənib. Azərbaycanla Macarıstan Avropada üzləşiblər və Prezident İlham Əliyev mətbuata birgə bəyanat zamanı bu prosesə belə eyham vurub: “Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır. Oxşarlıqlardan biri də Sizin də qeyd etdiyiniz kimi, Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da elə ölkələrdəndir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Bir də Siz qeyd etdiniz ki, Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni, bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik”.



İlham Əliyevin bu bəyanatı həm Azərbaycanla Macarıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin əsaslandırılmasını, həm də iki ölkənin geosiyasi, tarixi və coğrafi baxımdan ortaq xüsusiyyətlərini göstərir. Təhlükəsizlik çağırışları kontekstində isə daha böyük bir məsələ açılır: Azərbaycan da, Macarıstan da Rusiya-Ukrayna müharibəsi fonunda savaş aparan qonşularla həmsərhəddir. İlham Əliyevin bəyanatı regional təhlükəsizlik, sərhədlərin sabitliyi baxımından ortaq mövqelərin formalaşmasına zəmin yaradır.

### GEOİQTİSADİ, GEOSİYASİ VƏ TƏHLÜKƏSİZLİK MÖVZUSUNDA MÜZAKİRƏLƏR

Qeyri-rəsmi Zirvə görüşü təşkilatda təmsil olunan dövlətlər arasında geoiqtisadi, geosiyasi və təhlükəsizlik mövzusundakı müzakirə kimi başa düşülə bilər. Elə görüşdə imzalanan Bəyannamənin məqsədlərində də həmin təşəbbüslərin vacibliyi önə çəkilir.

Bəyannamə təhlükəsizliklə bağlı məqamları, o cümlədən üzv dövlətlərin birliyini pozmağa yönəlmiş təhdidlərə qarşı birgə mübarizənin vacibliyini bildirir. Bu, koordinasiyalı təhlükəsizlik siyasətinin ciddi siqnalıdır. Terrorizm və transmilli cinayətkarlıqla, kibercinayətkarlıqla mübarizə, Suriya və Əfqanıstan məsələlərinə dair baxış TDT-nin qlobal güc olmaq yönündəki səylərini nümayiş etdirir. Belə davam edərsə, yaxın gələcəkdə TDT eksklüziv imkanlardan istifadə edərək yüksək səviyyəli təhlükəsizlik arxitekturasına sahib olacaq.

### TDT-NİN SAMMİTİNDƏKİ ŞTRİXLƏR

İlham Əliyevin yanaşmaları, o cümlədən TDT-nin qeyri-rəsmi Sammitindəki mövqeyi uzunmüddətli strategiyanın zəruriliyini önə çıxarır. Azərbaycanla Türkiyə strateji müttəfiqlik əsasında TDT daxilində hərtərəfli institusionallaşmaya, hərbi təhlükəsizlik əlaqələrinin nizamına üstünlük verirlər. Bu, Bakı ilə Ankaranın həm Asiyada, həm də Avropada eksklüziv üstünlüklər qazanmasına doğru istiqamətləri müəyyənləşdirir. Çin mərkəzli layihə olan Orta Dəhlizin inkişaf etdirilməsi metodologiyasındakı Azərbaycanın rolu yüksək dəyərə sahibdir. Çünki Azərbaycan:

- Orta Dəhlizdə TDT-nin digər üzvləri olan Qazaxıstan və Türkiyə ilə birlikdə Avropa və Asiya arasında enerji və nəqliyyat bağlantısını təmin edir;
- Azərbaycanın zəngin enerji resursları, yerləşdiyi strateji mövqe onu Qərb və Şərq arasındakı koordinasiya platformasını gücləndirən mövqeyə gətirib çıxarıb.

Bu üstünlüklər, təkcə coğrafi mövqedən deyil, aktiv diplomatiya və inteqrasiya təşəbbüslərindən qaynaqlanır. Bu istiqamətdə isə Azərbaycanın dominant təşəbbüskarlıqları diqqət mərkəzindədir.

# ƏDALƏTİN TƏLƏB ETDİYİ HÖKM

Bakı ilə Tehran arasında siyasi münasibətlər normallaşır, iqtisadi, hərbi, mədəni və sair sahələrdə birgə layihələr reallaşdırılır. Lakin bu proses əslində daha əvvəl başlaya bilərdi. Əgər Tehran ədalətin tələb etdiyi hökmü gecikdirməsə idi...



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın İrandakı səfirliyinə hücum edən şəxs edam olunub. Bu barədə İranın Məhkəmə Sistemi məlumat yayıb. Bildirilib ki, hökm Ali Məhkəmənin aşağı instansiya məhkəməsinin qərarını təsdiqləməsindən sonra icra edilib.

### SƏFİRLİYƏ HÜCUM, POZULAN ƏLAQƏLƏR

Xatırladaq ki, səfirliyimizə hücum 2023-cü il yanvarın 27-də Bakı vaxtı ilə səhər saat 8:30-da baş verib. Yasin Hüseynzadə "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirib. Səfirliyin mühafizə xidmətinin əməkdaşları Vasif Tağıyev və Mahir İmanov hücumun qarşısını alarkən yaralanıblar.

Məhz bu hadisədən sonra Azərbaycan Xarici İşlər Nazirliyi yanvarın 30-da səfirliyin əməkdaşlarını Tehrandan təxliyə edib və səfirliyin fəaliyyətini dayandırmışdı. Rəsmi Bakının ədalətli hökmün verilməsi və onun təxirə salınmadan icrasına dair təkidli tələbləri fonunda Tehran bu məsələni uzatmağa və müxtəlif bəhanələr irəli sürməyə cəhd göstərirdi. Lakin Azərbaycanın tutarlı arqumentləri və faktlar qarşısında geri çəkilməyə məcbur qalan İran rəhbərliyi edam hökmünün yerinə yetiriləcəyini bildirdi. İki dövlət arasında aparılmış danışıqlar nəticəsində 2024-cü il iyulun 15-dən etibarən Azərbaycanın İrandakı səfirliyi yeni ünvanda fəaliyyətini bərpa edib, səfir və səfirliyin heyəti İrana geri dönüb.

### AZƏRBAYCANIN İRAN TƏRƏFİNDƏN ƏSAS GÖZLƏNTİSİ

Səfirliyimizdə terror aktı törədən cinayətkarın edam hökmü ilə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi də bəyanatla çıxış edib. Bildirilib ki, Yasin Hüseynzadənin edamının icra prosesini Azərbaycan səfirliyinin iki əməkdaşı və məhkəmə prosesində Azərbaycan tərəfindən təyin edilmiş vəkil müşahidə edib.

"Sözügedən terror aktını həyata keçirmiş şəxsin ən ağır şəkildə cəzalandırılması Azərbaycanın İran tərəfindən əsas gözləntiləri sırasında idi. Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin olunması və bu qəbildən əməllərin qarşısının alınması istiqamətində yerləşmə ölkəsi tərəfindən müvafiq tədbirlərin görülməsi hər zaman əhəmiyyət kəsb edir", - bəyanatda deyilir.

Qeyd edək ki, hökm tək siyasi və hüquqi ədalətin yox, həm də mənəvi ədalətin qələbəsi kimi qiymətləndirilə bilər. Bu, ən azından mənfur hücumda həyatını itirən Orxan Əsgərovun yaxınları üçün bir təsəllidir. Mərhumun atası Rizvan Əsgərov Oxu.Az-a açıqlamasında bildirib ki, iki ildən artıq idi ki, terrorçunun edam qərarının icrasını gözləyirdi: "Çünki qərar verilsə də, icra olunmurdu. Prezident İlham Əliyevə təşəkkür edirəm ki, onun qəti mövqeyi olmasaydı, bu edam hökmü icra olunmayacaqdı".

Ata bildirib ki, övlad ağrısı ilə yanaşı, onun qatilinin cəzasını almaması çox çətin idi: "Çox şükür ki, terrorçunun edamı bizim yaramızın üstünə az da olsa, su səpdi. Övlad ağrısı heç vaxt unudulmur. Sanki övladımızın yanında günahımız azaldı. Çünki özümüzü günahkar hiss edirdik ki, onu qətlə yetirən öz cəzasını almayıb".



## AZƏRBAYCANA QARŞI MÖVQE DƏYİŞMƏLİ İDİ

Qeyd edək ki, artıq iki ölkə arasında münasibətlərdə müsbətə doğru müəyyən dəyişikliklər müşahidə olunmaqdadır. Təbii ki, bu prosesdə Azərbaycanın ali rəhbərliyinin qətiyyətli siyasi iradəsi, həmçinin beynəlxalq gərginliyin artdığı bir məqamda ölkəmizin bölgədə sabitləşdirici və ehtiyac duyulan geosiyasi oyunçu olması da mühüm rol oynayır. Bu məqamlar İran rəhbərliyinin də diqqətindədir. Məhz rəsmi Bakının yaratdığı yeni reallıqlardan İran tərəfi də maksimum dərəcədə fayda götürməyə çalışır. Lakin bu məqsədə nail olmaq üçün ilk növbədə Azərbaycana qarşı sərgilənən mövqe və ritorika dəyişməli, qarşılıqlı maraqların nəzərə alınmasında bərabərhüquqluluq prinsipinə riayət olunmalı idi ki, Tehranın son dövrlərdə bu istiqamətdə addımlar atdığı müşahidə edilir.



### YENİ İNKİŞAF MƏRHƏLƏSİ

Bugünlərdə İranda səfərdə olan və Tehran Forumuna qatılan Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Tasnim"ə müsahibəsində ikitərəfli əlaqələrə dair açıqlamaları da diqqət çəkir.

"Hesab edirəm ki, Azərbaycanla İran arasındakı münasibətlər yeni bir inkişaf mərhələsinə qədəm qoyub", - deyə o bildirib. Prezidentin köməkçisi münasibətlərin inkişafının əsas amillərini də açıqlayıb: "İran İslam Respublikasının hörmətli Prezidenti ağaye Pezeşkianın Azərbaycan Respublikasına rəsmi səfərindən sonra hörmətli Prezidentimiz cənab İlham Əliyev və onların baş-başa, birlikdə apardığı müzakirələr, nümayəndə heyətləri səviyyəsində aparılmış müzakirələr İran - Azərbaycan əlaqələrinin inkişafına yeni bir təkan, yeni bir nəfəs verib. Bundan çıxış edərək, bizim İrandan olan həmkarlarımızla qarşımızda olan vəzifə ondan ibarətdir ki, bu əlaqələri daha da irəliyə doğru aparaq".

### BİRGƏ HƏRBİ TƏLİMLƏR

Azərbaycanla güc və hədə yolu ilə danışmağın qeyri-real olduğunu artıq İran rəhbərliyinin hərbi qanadı da dərk etməkdədir. Vaxtilə Araz çayı üzərində ölkəmizi hədəfə alan hərbi təlimlər keçirməklə beynəlxalq hüquqa əsaslanan mövqeyimizə təsir göstərəcəyini düşünənlər çox qısa müddətdə bunun yanlış olduğunu dərk etdilər. Bunun məntiqi nəticəsi olaraq bu gün Araz çayı üzərində hər iki ölkənin hərbçilərinin birgə təlimləri təşkil olunmaqdadır. "Araz-2025" birgə təlimi artıq uğurla yekunlaşıb. Təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib.

Göründüyü kimi, ölkəmizin ərazi bütövlüyünün bərpasından sonra ikitərəfli münasibətlərdə yaşanan gərginlik artıq yerini müsbətə doğru dəyişikliklərə verməkdədir. Bakı ilə Tehran arasında siyasi münasibətlər normallaşır, iqtisadi, hərbi, mədəni və sair sahələrdə birgə layihələr reallaşdırılır. Lakin bu proses əslində daha əvvəl başlaya bilərdi. Əgər Tehran ədalətin tələb etdiyi hökmü gecikdirməsə idi...

# TRAMPIN YAXIN ŞƏRQ TRiUMFU



Sələflərindən fərqli olaraq, Tramp Yaxın Şərqi müharibələr və inqilablarla deyil, biznes vasitəsilə fəth etmək istəyir. Körfəz ölkələri ilə danışıqlarda əldə olunan iki trilyon dollarlıq sərmayə sazişləri bu istiqamətdə mühüm nailiyyət kimi qiymətləndirilir.



AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Trampın prezident kimi fəaliyyətə başladıqdan sonra ilk səfərini üç Körfəz dövlətinə etməsi, səsləndirdiyi bəyanat və mesajlar dünyanın diqqət mərkəzindədir. Tramp öncə Səudiyyə Ərəbistanında, sonra Qətər və Birləşmiş Ərəb Əmirliklərinə oldu. Bundan əvvəl yalnız Papanın vəfatı ilə əlaqədar Romaya spontan səfər olmuşdu. Trampın bu ziyarəti təkcə diplomatik deyil, ölkənin liderlik rolunu yenidən formalaşdırmaq, xüsusilə Çinlə daha böyük qarşıdurmalara hazırlamaq üçün strateji gediş kimi qiymətləndirilir.

### ABŞ BİZNESİNİN ELİTASI

Tramp ilk növbədə ABŞ iqtisadiyyatının sağlamlaşdırılmasına köklənib, bunun üçün isə ona pul lazımdır. Körfəz monarxiyaları da okeanın o tayına böyük investisiya axınları təmin edə bilər, ona görə də Ağ Ev rəhbərinin ABŞ biznesinin elitasını özü ilə Ər-Riyada aparması təəccüblü deyildi: “Tesla” və “SpaceX”in rəhbəri İlon Mask, “Meta”nın baş direktoru Mark Zukerberg, “Boeing”in baş direktoru Kelliy Ortberg, “Citigroup”un rəhbəri Jane Fraser, “OpenAI” şirkətinin rəhbəri Sam Altman, Tramp administrasiyasında süni intellekt və kriptovalyutaları kurasiya edən investor David Saks.

## 600 MİLYARDLIQ SÖVDƏLƏŞMƏ

Səfərdən əvvəl ABŞ mediası yazırdı ki, Səudiyyə Ərəbistanı ABŞ-yə 600 milyard dollar, BƏƏ isə 1,4 trilyon dollar investisiya qoya bilər. Trampın özü ikinci prezidentlik müddətinin əvvəlində səudilərin ABŞ iqtisadiyyatına oxşar məbləğdə investisiya planlarını açıqlamışdı. Səudiyyə Ərəbistanının investisiyalarını bir trilyon dollara qədər yuvarlaqlaşdırmaq hələ mümkün olmayıb, lakin Tramp gözlənilən minimumu əldə edib: onun Ər-Riyada səfərinin ilk günündə Ağ Ev “tarixi sövdələşmə” barədə məlumat verib. “Bu, Vaşinqton və Ər-Riyad arasında tərəfdaşlığın yeni qızıl dövrünü açır”, - məlumatda bildirilib.



Sövdələşmənin 142 milyard dolları silah alışı və Səudiyyə ordusunun amerikalılar tərəfindən təlimi üçün olan müqavilələrdir. Bu, silah satışı üzrə tarixdə ən böyük sövdələşmədir. Digər müqavilələr Səudiyyə Ərəbistanına qaz turbinləri və “Boeing 737-8” təyyarələrinin tədarükü, ABŞ-də data mərkəzləri və enerji infrastrukturunun qurulması, Miçiqanda tibbi məhlulların istehsalı üçün yeni yüksək texnologiyalı zavodun inşası və digər layihələrə aiddir.

### ZƏFƏRƏ ÇEVRİLƏN SƏFƏR

Tramp açıq bəyan etdi ki, səfərə ərəb ölkələrindən ABŞ iqtisadiyyatına investisiyalar cəlb etmək üçün gedir. Bu mənada yekunda səfər zəfərə çevrilib. Ümumilikdə, ABŞ tək Qətərlə 1,2 trilyon dollar məbləğində iqtisadi əməkdaşlıq sazişi bağlayıb. ABŞ şirkətləri BƏƏ və Səudiyyə Ərəbistanında məlumat mərkəzlərinin qurulması, mikroçiplərin tədarükü və süni intellektin inkişafı üçün çoxmilyardlıq müqavilələr imzalayıb. Müqavilələri tənqid edənlər deyirlər ki, Tramp istehsalı ABŞ-yə qaytarmaq istədiyini söyləməkdə davam edir, lakin o, gələcəyin kritik sənayesini “autsorsing” edir.

## İNQİLABLARLA DEYİL, BİZNESLƏ FƏTH

Maraqıdır ki, sələflərindən fərqli olaraq, Tramp Yaxın Şərqi müharibələr və inqilablarla deyil, biznes vasitəsilə fəth etmək istəyir. “Bütün dünya üçün anlamaq vacibdir ki, bu gözəl transformasiya qərb müdaxiləsi, yaxud gözəl təyyarələrdə uçan və sizə necə yaşamaq, işlərinizi necə aparmaq barədə mühazirələr oxuyan insanlar nəticəsində baş verməyib. Ər-Riyadın və ya Əbu-Dabinin parlaq gözəllikləri, trilyonlar xərcləyən, lakin Kabil, Bağdad və bir çox digər şəhərlərin inkişafına kömək etməyən “millət qurucuları”, neokonlar və ya liberal QHT-lər tərəfindən yaradılmayıb. Müasir Yaxın Şərqin doğuluşu bu regiondan olan insanlar sayəsində baş verib. Məhz burada olan insanlar, bütün həyatlarını burada yaşayan və öz suveren dövlətlərini inkişaf etdirən insanlar sayəsində”, - Trampın Ər-Riyadda investisiya forumunda səsləndirdiyi bu fikirlər gurultulu alqışlarla qarşılanıb.

Səudilərlə danışıqlar çərçivəsində Tramp amerikalıların rifahı üçün vacib olan daha bir şərtə - neft qiymətlərinin aşağı salınmasına nail olmaq istəyirdi. Burada hələlik hər hansı bir irəliləyiş barədə məlumat yoxdur. Səudiyyə Ərəbistanı, neft kartelinin digər üzvləri Rusiya ilə əməkdaşlığa maraq göstərirlər və yalnız Trampa xoş gəlmək üçün OPEC+ sazişini risk altına atmayacaqlar.

### TRAMP VƏ ƏŞ-ŞARAANIN GÖRÜŞÜ

ABŞ-Səudiyyə Ərəbistanı münasibətləri yalnız ticarət və hərbi sazişlərlə yekunlaşmayıb. Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın Trampla görüşü zamanı bölgədə sülh və əməkdaşlıq üçün çox mühüm addım atılıb. Tramp Salmanın təklifi ilə Ər-Riyadda Suriya administrasiyasının yeni rəhbəri Əhməd əş-Şaraa ilə görüşüb. Tramp bu görüşdə ABŞ-nin Suriyaya qarşı sanksiyaları ləğv etdiyini bildirib. Bu, Suriya və bölgə ölkələri üçün çox vacib qərardır. Çünki ABŞ-nin Suriyaya tətbiq etdiyi sanksiyalar bu ölkənin iqtisadi problemlərinin həllinə mane olur. Sanksiyaların ləğvindən sonra Səudiyyə Ərəbistanı, Türkiyə və digər ölkələr Suriyaya yatırımlarını artıracaqlar.

Yekun olaraq onu deyə bilərik ki, Trampın səfərinin hədəfi Çinin əsas ticarət tərəfdaşına çevrilən Körfəz ölkələrini öz tərəfinə çəkmək idi və buna qismən nail olduğunu ehtimal etmək olar.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN YARALI YERİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Müasir dövrdə ali təhsil müəssisələrinin yalnız bilik verən deyil, həm də innovasiya yaradan və sənaye ilə əməkdaşlıq edən strukturlara çevrilməsi vacib şərtlərdən sayılır. Lakin Azərbaycanda bu sahədə ciddi boşluqlar var və bu məsələ universitetlərin yaralı yerinə çevrilib.**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov Bakıda keçirilən II Beynəlxalq Aqrar İnnovasiya Forumunda deyib ki, 2024-cü il ərzində universitetin sənaye sahəsindən əldə etdiyi gəlir ümumi gəlirin cəmi 6 %-ni təşkil edib. Rektor həmçinin qeyd edib ki, bu, olduqca aşağı göstəricidir və universitet-sənaye əməkdaşlığının zəifliyini göstərir.

Müasir dövrdə ali təhsil müəssisələrinin yalnız bilik verən deyil, həm də innovasiya yaradan və sənaye ilə əməkdaşlıq edən strukturlara çevrilməsi vacib şərtlərdən sayılır. Lakin Azərbaycanda bu sahədə ciddi boşluqlar var və bu məsələ universitetlərin yaralı yerinə çevrilib. Universitet-sənaye əməkdaşlığının zəif olması təkcə təhsil sahəsinə deyil, ölkənin iqtisadi və texnoloji inkişafına da təsir göstərən amillərdəndir.

### GÜVƏN VƏ KOORDİNASİYA PROBLEMİ

Maraqlıdır, hazırda universitet-sənaye əməkdaşlığının inkişafına mane olan faktorlar nələrdir? Azərbaycan universitetləri sənaye sahəsindən əldə etdikləri gəlirləri artıra bilərmi?

Rüfət Əzizova görə, əməkdaşlığın zəif olmasının əsas səbəbi, sənayenin universitetlərə inanmaması, bu sahədə qarşılıqlı güvən probleminin olmasıdır. İkinci əsas problem isə koordinasiya çatışmazlığıdır. Yəni, sənaye nümayəndələri universitetlərin hansı imkanlara və resurslara malik olduğunu yetərincə bilmirlər.




## "YETƏRİNCƏ TƏCRÜBƏMİZ YOXDUR"

Ali təhsil məsələləri üzrə ekspert, pedaqogika üzrə fəlsəfə doktoru Vüsal Kərimli "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, universitetlərin sənaye və yaxud da iş dünyası ilə əlaqələri çox aşağı səviyyədədir. Bunun da müəyyən subyektiv və obyektiv səbəbləri var: "Əsas səbəblərdən biri, təhsil sistemimizin sənaye ilə inteqrasiya olunmuş dünya təhsil modelinə keçidinin hələ tam baş verməməsidir. Bu keçid kifayət qədər mürəkkəb və zaman tələb edən prosesdir. Nəzərə almaq lazımdır ki, biz uzun illər Sovet İttifaqı sistemində yaşamış bir ölkəyik. O dövrdə universitetlərlə sənaye arasında sıx əməkdaşlıq modeli mövcud deyildi. Təhsil proqramları mərkəzdən planlaşdırılır və əmək bazarının real tələbləri ilə uyğunlaşdırılmırdı. Bu səbəbdən də ölkəmizdə sənaye-təhsil əməkdaşlığı sahəsində yetərli təcrübə formalaşmayıb. Ümumiyyətlə, ölkə olaraq elmi nəticələrin kommersiyalaşdırılması istiqamətində ciddi addımlar ata bilməmişik. Beynəlxalq Əqli Mülkiyyət Təşkilatında qeydiyyatdan keçmiş patentlərimizin sayı da qənaətbəxş deyil. Bu isə birbaşa sənayeləşməyə təsir edən əsas amillərdəndir".



## "İNKİŞAF MÜŞAHİDƏ OLUNUR"

Mütəxəssis son illər bu sahədə müsbət dəyişikliklərin olduğunu vurğulayır: "Azərbaycan universitetləri üçün 2028-ci ilə qədər beynəlxalq reytinqlərdə - xüsusilə TOP800-də yer almaq kimi strateji hədəflər müəyyən edilib. Bu isə universitetləri daha rəqabətqabiliyyətli və əmək bazarına uyğun kadr hazırlığına yönəldir. Müasir dövrün əsas tələblərindən biri əmək bazarına uyğun ixtisaslı kadrların hazırlanmasıdır. Bu məqsədə çatmağın ən effektiv yollarından biri isə universitetlərlə sənaye sektoru arasında davamlı əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Universitetlər bu əməkdaşlıq sayəsində həm təhsil proqramlarını təkmilləşdirə, həm də tələbələrə real iş təcrübəsi qazandıraraq onların peşəkar inkişafına töhfə verə bilər".

### "AZI 20-30 İL VAXT LAZIM OLACAQ"

V.Kərimlinin sözlərinə görə, bu, sadə və tez başa gələn proses deyil. Bu tendensiyanın dəyişməsi üçün azı 20-30 il vaxt lazım olacaq. Təhsil modeli və sənaye ilə əməkdaşlıq bir göstərişlə və ya fərmanla qurula biləcək mexanizm deyil: "Bu istiqamətdə ciddi sistemli islahatlar həyata keçirilməlidir. Hazırda Azərbaycanın bir sıra ali təhsil müəssisələri publik hüquqi şəxs statusuna malikdir. Bu isə o deməkdir ki, onlar həm də xidmət təklif edə, sənayeyə birbaşa çıxış imkanları əldə edə bilərlər. Universitetlər öz texnoparklarını beynəlxalq praktikaya uyğun şəkildə yenidən qurmalı və işlək modellər tətbiq etməlidirlər".




## "ƏMƏKDAŞLIQDA HƏR İKİ TƏRƏF MARAQLI OLMALIDIR"

Təhsil eksperti Adil Nəbiyev deyir ki, Azərbaycanda universitetlərlə sənaye arasında əməkdaşlıq çox vaxt formal xarakter daşıyır: "Əməkdaşlıq adı altında adətən yalnız sponsorluq və tədbirlərin birlikdə təşkili nəzərdə tutulur. Universitetlər müəyyən forum və tədbirləri tərəfdaş müəssisələrin sponsorluğu ilə keçirməyə üstünlük verirlər. Halbuki, bu əməkdaşlıqda hər iki tərəfin maraqlı olması vacibdir. Universitetlər üçün əsas məqsəd tələbələrinin işlə təmin olunması və təqaüd proqramlarından yararlanmaq imkanlarını genişləndirmək olmalıdır. Eyni zamanda, müəssisələr də universitetlərlə birgə konkret proqram və layihələr həyata keçirməlidir ki, bu əməkdaşlıq gələcəkdə ixtisaslı kadr təminatına töhfə versin".

Mütəxəssisin sözlərinə görə, əsas problemlərdən biri isə əmək bazarının tələbləri ilə universitet tədris proqramları arasında uyğunluğun olmamasıdır: "Müşahidələr göstərir ki, bu uyğunsuzluq hələ də qalır. Digər tərəfdən, universitetlərdə elmi-tədqiqat potensialı zəifdir. Tədqiqatlar əsasən laboratoriya və yeni formalaşmaqda olan texnoparklar çərçivəsində aparılır. Bir çox universitetlərdə bu sistemlər hələ yenicə qurulur. Düşünürəm ki, sənaye müəssisələri texnoparkların yaradılması, infrastrukturun gücləndirilməsi və tədris proqramlarının əmək bazarına uyğunlaşdırılması üçün universitetlərə dəstək göstərməlidir".

A.Nəbiyev vurğulayır ki, əgər universitet və sənaye arasında əməkdaşlığın möhkəmləndirilməsini istəyiriksə, bu prosesdə hər iki tərəf aktiv iştirak etməlidir: "Həm universitet rəhbərliyi, həm də sənaye müəssisələrinin rəhbərləri qarşılıqlı ehtiyacları dərindən bilməli və əməkdaşlıq təkliflərini obyektiv şəkildə dəyərləndirməlidirlər. Yalnız bu halda biri digərinin tələblərinə cavab verə bilər".

# BORCLANMADAN OLMUR

Xarici dövlət borcumuz azalsa da, daxili borclanmada artım qeydə alınır. İqtisadçılar düşünürlər ki, ölkənin borclanma səviyyəsi ilə bağlı təşvişə ehtiyac yoxdur. Amma mümkün olduğu qədər gəlirlərimiz hesabına borclarımızı bağlamağa çalışmalıyıq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın daxili və xarici dövlət borcu 27 milyard 380,2 milyon manat və ya Ümumi Daxili Məhsulun (ÜDM) 21,7 faizini təşkil edir. Ümumi dövlət borcunun 8 milyard 720,5 milyon manatı (5 milyard 129,7 milyon ABŞ dolları) və ya 31,8 faizi xarici dövlət borcunun, 18 milyard 659,7 milyon manatı və ya 68,2 faizi daxili dövlət borcunun payına düşür. Daxili dövlət borcu 2024-cü ilin əvvəli ilə müqayisədə 2 milyard 793,3 milyon manat artıb. Bəs, görəsən, xarici borcların azalması, daxili borcların artması nəyin göstəricisidir? Bunun hansı müsbət tərəfləri və ya riskləri var?




### DAXİLİ BORCLANMANI ARTIRAN BAŞLICA SƏBƏB

İqtisad elmləri üzrə fəlsəfə doktoru Altay İsmayılovun sözlərinə görə, dövlət borcu büdcə gəlirləri xərcləri ödəməyə yetərli olmadığı, xarici valyuta təklifinin tələbi ödəyə bilmədiyi hallarda yaranır: "Əgər iqtisadiyyatda büdcə kəsiri varsa, dövlət bunu ödəmək üçün müxtəlif mənbələrə müraciət edə bilər. Eyni zamanda, ölkənin idxalı ixracatından daha çoxdursa, müxtəlif layihələrin maliyyələşdirilməsi üçün xarici valyutaya ehtiyac yaranır və xarici borca müraciət edilir. Məsələn, iqtisadiyyatda büdcə kəsri yarandığı zaman, bu ehtiyac milli valyuta ilə ödənə bilirsə, o zaman dövlət daxili borc mənbələrinə müraciət edir".

A.İsmayılov daxili borcun artmasını, xarici borclarımızın isə azalmasını təbii hesab edir: "İqtisadiyyatımız baxımından hələ ki, ixracatımız idxalı üstələyir. Eyni zamanda, dövlətin 70 milyard dollardan artıq valyuta ehtiyatları mövcuddur. Bu da onu göstərir ki, cari şərtlərdə dövlətin xarici valyutadan asılılığı yoxdur. Hər il dövlət büdcəsi təsdiqləndiyi zaman büdcə kəsiri ilə üz-üzə qalırıq. 2025-ci ilin büdcəsinə də nəzər yetirdikdə, üç milyard manatdan daha çox büdcə kəsiri olduğu görünür. Bu vəziyyətdə proqnoz edilən rəqəmlər dəyişmədiyi halda büdcə kəsirini ödəmək üçün daxili borca müraciət edilir".

Müsahibimizin sözlərinə görə, daxili borcları artıran əsas amil quruculuq işləridir: "Son illərdə hər il Qarabağın bərpasına 3-4 milyard manatdan çox vəsait sərf olunur. Bu il də bu istiqamətdə dörd milyard manatlıq vəsait nəzərdə tutulub. Bu, bizim büdcə kəsirimizdən daha böyük vəsaitdir. Qarabağın bərpası həm uzunmüddətli, həm də böyük vəsait tələb edən işdir. Ola bilər ki, növbəti illərdə bu işlərin sürətləndirilməsi üçün aşağı faizlə xarici borclanmaya da gedilsin".



Altay İsmayılov

## "İQTİSADİYYATDA MALİYYƏ GƏRGİNLİYİ YARADIR"

İqtisadçının fikrincə, həm xarici, həm də daxili borcun özünə görə müsbət və mənfi tərəfləri mövcuddur: "Məsələn, çox böyük həcmli layihələri maliyyələşdirmək üçün beynəlxalq təşkilatlardan aşağı faizlə xarici borc götürmək mümkündür. Faiz aşağı olduğu üçün ondan zəruri və əlavə dəyər yaradan istiqamətlər üçün istifadə etmək imkanı var. Daxili borclanmada isə faizlər xarici borcla müqayisədə daha yüksəkdir. Həm xarici, həm də daxili borcda əsas amil ondan ibarətdir ki, borclar düzgün, effektiv idarə olunsun. Yəni, elə etmək lazımdır ki, borclanma iqtisadiyyatı daim borc yükü altında saxlamasın, mütəmadi faiz yükü yaradan vəziyyətə gətirib çıxarmasın".

A.İsmayılov daxili borclanmanın risklərindən də danışdı: "Hazırda xarici borc azalır, bu səbəbdən hər hansı risklə üzləşmirik. Ancaq daxili borcların artmasının müəyyən riskləri ola bilər. Sadə şəkildə ifadə etsək, dövlətin borclanmasının mənası budur ki, gəlirlər xərclərdən azdır. Bu, iqtisadiyyatda maliyyə gərginliyi yaradır. Eyni zamanda dövlət maliyyə bazarında mövcud olan resursları borclanaraq büdcəyə transfer edir. Bu zaman banklarda iqtisadiyyatı tam təmin etmək üçün lazım olan maliyyə resursları azalır. Bu da öz növbəsində pulun bahalaşmasına, yəni faizlərin artmasına gətirib çıxara bilər".

### "DÖVLƏT BORCUMUZ BEYNƏLXALQ NORMALARA UYĞUNDUR"

İqtisadçı Akif Nəsirli isə düşünür ki, xarici borcun azalmasına səbəb onun daxili borc hesabına ödənilməsidir: "Dövlət borcumuz beynəlxalq normalara uyğundur. 71 milyard maliyyə ehtiyatı var ki, onun 60 milyardı aktivlər, Neft Fondunun kapitalıdır. Yerdə qalan 11 milyard valyuta ehtiyatımızdır".

A.Nəsirlinin fikrincə, hazırkı gəlirlərimiz hesabına bütün borclarımızı rahatlıqla bağlaya bilərik. Bu, ölkəmiz üçün daha uğurlu addım olar: "Nəzərə almalıyıq ki, borcların riskləri də var. Xarici borclarda risk faktoru daha çoxdur. Xərclər borclanma olmadan da idarə edilə bilər".



Akif Nəsirli

28 MAY GÖRKƏMLİ KAMANÇA İFAÇISI, XALQ ARTİSTİ HABİL ƏLİYEVİN DOĞUM GÜNÜDÜR

# “ÇALIŞIN, MƏNƏ RƏHMƏT OXUTDURUN...”



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Xalq artisti Habil Əliyevin qızı Kəmalə Habilqızı:** “Atam çox tanınmış musiqiçi olsa da, ailədə bizə atalıq, nəvə-nəticələrinə babalıq edəndə məşhurluğu yaddan çıxırdı. Çox kövrək idi, söz deməmiş gözü dolurdu. Övladları da ona oxşayıb”.

“Doğmalar” rubrikasındakı budəfəki qonağımız görkəmli kamança ifaçısı, Xalq artisti Habil Əliyevin qızı, Xətai rayonundakı 6 saylı Şəhər Poliklinikasının həkimi Kəmalə Habilqızı oldu. O, atasının təkcə sənətinin böyüklüyündən, ona olan xalq sevgisindən deyil, həmçinin necə ailə başçısı olmasından, övladlarına necə valideyn olmasından danışdı.

### “HƏKİM OLMAĞIMIZ ATAMIN ARZUSU İDİ”

● **Kəmalə xanım, Habil Əliyevin üç qızının üçü də həkimdir. Musiqinin içində böyüyən bir ailədə niyə tibb sahəsinə meyl etdiniz? Bu, öz istəyiniz idi, yoxsa valideynlərinizin seçimi?**

● Məndə uşaqlıqdan musiqiyə həvəs var idi. İndiyə qədər də evdə özüm üçün ifa edirəm. Həkim olmağımız atamın arzusu idi. Deyirdi ki, mən özüm həkim ola bilməmişəm, amma bütün övladlarım həkim olmalıdır. Bacılarım uşaq həkimidir, mən isə müalicə-profilaktika fakültəsini bitirmişəm. Qardaşım Rəvan isə bir balaca mübahisədən sonra musiqi sahəsində fəaliyyət göstərdi. Sonradan da fəaliyyətini dayandırdı. Bizim musiqiçi olmamağımızla bağlı atamın narazılığı bu sahənin çətinliyi ilə bağlı idi.

● **Bəs siz həkim olandan sonra ata kimi xoşbəxt idimi?**

● Evimizin böyük övladıyam. Atam həmişə deyirdi: “Narahat olma, sən musiqiçi olmadın, amma o musiqi sənin sənətində çox rol oynayacaq. Sənə insanları duymaqda, onlara yardım etməkdə kömək edəcək. Həkimliyin özü incəsənətdir. Xəstə içəri daxil olanda həkimin üzünün təbəssümü, onu qəbul etməsi, ona yanaşması, müsbət enerji ötürməsi - Allah bunu hər adama vermir. Sən musiqini bilirsən, duyursan. İnsanlara da o dərəcədə həssas yanaşacaqsan”. Atam məsləhət verirdi ki, mən bu dünyada qonağam, çalışın, mənə rəhmət oxutdurun. Xəstələrə elə yanaşın, elə qulluq edin ki, “sağ ol” desinlər. İndi müşahidə edib görürəm ki, atam doğru deyib. Elə bir pasiyent olmur ki, mənim qəbulumdan gülə-gülə, atama rəhmət oxuya-oxuya çıxmasın. Bacılarım pediatrdır, mənim işim isə daha çətindir: əsəbi xəstələr, müharibə veteranları, qazilərimiz - hamısı bu otağa müraciət edir. Onların hamısının öhdəsindən səbirlə, bacarıqla gəlməyə çalışıram. 48 ildir həkim işləyirəm. Təqaüdə getməyimə aylar qalıb. Elə bilirəm, bu illər ərzində atamın arzuladığı kimi həkim ola bilmişəm. Pasiyentlər məni qucaqlayıb ağlayanda, təşəkkür edəndə bunu hiss edirəm və sevinirəm.

### “ATAMIN MÜALİCƏSİ İLƏ ÖZÜM ŞƏXSƏN MƏŞĞUL OLMUŞAM”

● **Heç atanız müalicəsini sizə etibar edirdimi?**

● Atamın müalicəsi ilə özüm şəxsən məşğul olmuşam. Deyirdi, ay bala, bütün dünyanı gəzmişəm, sən demə, həkimim öz yanımda imiş, adam öz evindəkinin qədrini bilmir. Bilsəydim, heç indiyə qədər başqa həkimə getməzdim. Bir dəfə mənim müalicəmdən sonra efirə çıxmışdı. Qohumlar anama zəng edib: “Niyə Habilin köhnə lent yazısını, cavanlığını göstərirlər?” - soruşanda anam cavab vermişdi ki, “köhnə lent yazısı deyil, iki gün əvvəl çəkilib. Kəmalənin müalicəsindən sonra yaxşılaşıb, cavanlaşıb”.



### “MƏN TİBB İNSTİTUTUNUN YOLUNU TANIMAYACAĞAM”

● **Yadımdadır, o vaxt Tibb Universitetində oxumağın öz çətinlikləri vardı. Vəzifəli adamların övladları, rüşvət məsələsi və s. daha çox hallanırdı. Sizin təhsilinizdə Habil Əliyevin məşhurluğu nə qədər rol oynadı?**

● İnstituta qəbul olmamışdan atam mənimlə üzbəüz söhbət etdi. Dedi ki, qızım, həkimlik müqəddəs sənətdir. Necə məsuliyyətlə oxuyub imtahanlara hazırlaşmısan, instituta qəbul olandan sonra da yüksək səviyyədə bilik almalısan, mənə alqış-dua etdirməlisən. Mən Tibb İnstitutunun yolunu tanımayacağam. Elə eləməlisiniz ki, mənim ora gəlməyimə ehtiyac olmasın, heç ehtiyac olsa da gəlmərəm. Əgər yaxşı oxumasanız, qoy sizi institutdan çıxarsınlar, bu, mənə ən böyük yaxşılıq olar. Mən tapşırıqla oxuyan həkimləri heç vaxt qəbul etməmişəm.

Həqiqətən də atam biz oxuyan müddətdə institutun yolunu tanımadı. Hərdən soruşurdu ki, “Kəmalə, neçənci kursda oxuyursan?” Atam həmişə deyirdi ki, həkimin və müəllimin savadsızı olmaz. Bu, qəbahətdir. Həkim savadsız olsa insanı ya öldürəcək, ya da şikəst edəcək. Bütün sənətlər, hətta musiqiçi də qocalanda hörmətdən düşür. Müəllimlik və həkimlik yeganə sənətdir ki, qocaldıqca hörməti artır. Gör neçə ilin həkimidir, müəllimidir, o daha yaxşı bilər deyirlər.

> “Evimizdə ciddi qayda-qanun hökm sürürdü. Kişinin kişi, qadının qadın yeri vardı. Anama yüksək dəyər verirdi. “Evin böyüyü Şərqiyyədir, ananızın sözünə qulaq asın. Mən səfərlərdə oluram, evə o nəzarət edir”, - deyirdi.”

### KÖVRƏK, CİDDİ, ZARAFATCIL, AĞIR XASİYYƏTLİ

● **Habil Əliyevin zarafatları, lətifələri, baməzə söhbətləri dillər əzbəri olub. Evdə də zarafatcıl idi?**

● Atam çox tanınmış musiqiçi olsa da, ailədə bizə atalıq, nəvə-nəticələrinə babalıq edəndə məşhurluğu yaddan çıxırdı. Çox kövrək idi, söz deməmiş gözü dolurdu. Övladları da ona oxşayıb. Məni həm xarici görkəmcə, həm də kövrək olmağıma görə ona çox oxşadırlar. Çox qayğıkeş, diqqətli idi. Yeddi nəvəsi var. 11-ci nəticəsi mayın 14-də doğuldu. Nəticələrdən biri – Rəna bacımın nəvəsi atamın adını daşıyır. Habil bütün nəslin istəklisidir. Atam yeri gələndə çox ciddi idi. Heç vaxt bizə tərif deməzdi. “Mən övladımı tərifləməliyəm? Mənim övladım, Şərqiyyənin oğlu-qızı belə olmalıdır”, - deyirdi. İnstitutu həyəcanla, qorxu, streslə qurtarıb diplom alanda sakitcə “təbrik edirəm, o gün olsun ki, o diploma layiq olub savadlı həkim olasan, atan kimi sənətdə özünü doğrultmağı bacarasan!” dedi. Atamın həm də ağır xasiyyəti vardı. Biz evə bir az gec gələndə əsəbiləşərdi: “O qazanın ağzı açılmalıdır, evdəkilər sizi gözləyir. Evə vaxtında gəlmək lazımdır. İşinizi elə qurun ki, həmin vaxtda evdə olun”, - deyirdi.

Evimizdə ciddi qayda-qanun hökm sürürdü. Kişinin kişi, qadının qadın yeri vardı. Anama yüksək dəyər verirdi. “Evin böyüyü Şərqiyyədir, ananızın sözünə qulaq asın. Mən səfərlərdə oluram, evə o nəzarət edir”, - deyirdi. Anam institutu qırmızı diplomla bitirmişdi, amma atam onu bircə gün də işləməyə qoymadı: “Mən qastrollara gedirəm, bu uşaqların tərbiyəsi, məktəbi var”, - dedi. Anam təkid edəndə “səni elə saxlayacam, işləyən qadınlar sənə həsəd aparacaq”, - dedi. Atam gözəl ailə başçısı idi. Anam onu sevmədən ailə qurmuşdu, amma sonra elə sevirdi ki, sanki əvvəldən istəyib evlənmişdi. “Sən işləməyi neynirsən, sən mətbəxin akademikisən”, - deyirdi. Anamın gözəl əl qabiliyyəti, biş-düşü vardı. Anamın xasiyyəti də ciddi idi, hər işimizə - geyim-keçimimizə, oturuşumuza-duruşumuza qarışırdı. Hərdən ağlayıb “sən qəddarsan, ata səndən mülayimdir”, - deyirdim.

Atam kürəkənlərini də çox istəyirdi. “Əvvəl qızlarımı çox istəyirdim, indi qızlarımı kürəkənlərimə görə çox istəyirəm. Onlar mənim oğlanlarımdır”, - deyirdi. Həqiqətən, kürəkənlər də atamın hörmətini saxlayırdılar.

### ”KİMİN NƏ SÖZÜ OLSA, FİLARMONİYAYA GƏLSİN...”

● **Habil Əliyevin lətifələrindən ibarət bir kitab da çap olunub. Zarafatları əsasən sənət dostları haqqında idi. Evinizə sənət dostlarından kimlər gəlib-gedirdi?**

● İncəsənət işçiləri bizim evimizi tanımayıb. Atam əvvəldən onlara deyib ki, mənim evimdə cavan yoldaşım, gənc qızlarım var. Heç evə telefonla zəng olunmasını da xoşlamırdı. ”Kimin nə sözü olsa, Filarmoniyanın bağına gəlsin, səhər saat 11-dən günorta 3-ə qədər orayada oluram”, - deyirdi. Ayrı-ayrı adamlar da sözləri, xahişləri olanda ora gedirdilər. Hamısına da kömək edirdi. “Mən sadə bir kamança ifaçısıyam, gedərəm xahiş edərəm, düzələr, lap yaxşı, elə bir adama rast gələrəm, düzəlməsə, məndən inciməyin”, - deyə adamları boşuna arxayın salmağı xoşlamırdı. Amma iş həmişə də düzəlirdi. O, insanlara kömək etməyə çalışırdı. Deyirdi ki, məni ucaldan da xalqım, onun alqışları oldu. Atam xalqını, Vətənini çox sevirdi. Qastrollara tez- tez gedirdi. ABŞ-də, İranda və başqa ölkələrdə bəzən aylarla qalmalı olurdu. Gələndə hönkür-hönkür ağlayırdı. Onu çox yerə dəvət edirdilər, amma deyirdi ki, vətənimsiz, xalqımsız heç yerdə yaşaya bilmərəm.

● **Sənət dostları xatırlayır ki, ustadı daha çox İranda sevirmişlər...**

● İrana hər gedişində onun qalması üçün 3-4 villa ayırırdılar. Bir dəfə anamla getdi, hətta 5-6 ay orada qaldılar. Onlar atamı o qədər sevirdilər ki, buraxmaq istəmirdilər. Bir dəfə Fəxri Xiyabanda olanda atam üçün “Yasin” surəsini oxuyurdum. Rəhmətə gedən il idi. Tehran və Təbrizdən məzarını ziyarət etməyə bir neçə avtobus adam gəlmişdi. Yaxınlaşıb “Siz Habil ağanın kimisiniz?”, - deyə soruşdular. Qızı olduğumu bilincə, məni bağırlarına basıb ağladılar. İranda 40 gün atam üçün yas verildi. Küçələrdə də ehsan verir, kasıb-kusubu yedirdirdilər. Bacımın oğlu İrana dəvət olundu. Gələndən sonra anama “məni duz kimi yalayırdılar. İranlılar babanı nə qədər sevirmiş...”, - deyə heyrətini bildirdi.



Fotolar: Tapıq Abdullayev/Global Media Group

## “Atam çalışdı ki, özündən sonra izini qoysun”

● **Habil müəllimin ölümündən sonra xatirəsi necə anılır?**

● Atam bir dəfə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevaya “muğamımız itir-batır. Muğam ana laylamızdır, onu xilas edin”, - deyə müraciət etmişdi. Sağ olsun Mehriban xanım, bu sahədə çox böyük işlər görüldü. Mehriban xanım bir dəfə atama “Habil müəllim, siz elə deyirsiniz insana öləndən sonra qiymət verilir. Nə arzunuz var, deyin, sağlığınızda edək”, - deyə bildirmişdi. Atam da Ağdaşdakı musiqi məktəbinin vəziyyətinin pis durumda olduğunu bildirmişdi. Atamın xahişindən sonra Ağdaşda çox müasir və geniş musiqi məktəbi tikildi. Məktəbə Habil Əliyevin adı verildi. Bizi məktəbin açılışına dəvət etmişdilər. Məktəbdə Habil Əliyev adına kamançaçalanlardan ibarət ansambl da yaradıblar. Atam çalışdı ki, özündən sonra izini qoysun.



● **Habil Əliyevin son günlərini necə xatırlayırsınız?**

● Atam çox şərəfli həyat sürdü. Müslüm Maqomayev, Yaşar Nuri dünyasını dəyişəndə nə qədər ağladı. “Cavanlar ölür, mən yaşamağa utanıram...”, - deyirdi. Anam deyirdi ki, hərənin bir alın yazısı var, Allah onlara o ömrü yazıb. Atam xəstələnəndə yataqda çox qalmadı. Rəhmətə gedənə qədər özünü yaxşı hiss edirdi. Prezident İlham Əliyevin və Mehriban xanımın göstərişi ilə evdə yüksək səviyyədə tibbi kömək təşkil edilmişdi. Qohum-əqrəba başının üstündə idi. Onu çox sevirdilər. Həm çörək verən adam idi, həm də hamının problemlərinə kömək edirdi. Arabir gözünü açanda “Şərqiyyə, məni soruşub edən, gəlib-gedən?” - deyə soruşurdu. Anam “Ay Habil, jurnalistlər əl çəkmir”, - dedi. Atam dedi ki, mən onları çox sevirəm. Onlar məni həyatım boyu işıqlandırıblar. Allah qoysa, yataqdan durum, qəşəng bir süfrə açarsan, onları qonaq çağıracağam... Amma arzusu ürəyində qaldı. Biz bilirdik ki, yataqdan durmayacaq...

Hökumətimiz sağ olsun, atamın xatirəsinə sağlığında da, ölümündən sonra da layiqincə qiymət verib. Heydər Əliyev Fondu atamın 80 illik yubileyinə həsr olunmuş musiqi albomu hazırlayıb.

Atam 1-ci Fəxri Xiyabanda dəfn olunub, böyük heykəli ucaldılıb. Məzarı üstündə güllər heç solmur, daim gəlib-gedən var. Bizi narazı salan telekanalların laqeydliyidir. Elə bil heç Habil Əliyev kimi bir sənətkar olmayıb. Əvvəllər atamı daha çox yad edirdilər. İllər keçdikcə unudulur, yaddan çıxır...

Bu münasibətdən biz övladları bir qədər incidik. Amma bu gün siz gəlmisiniz, onu doğum günü ərəfəsində xatırlayırsınız. 28 may – Habil Əliyevin doğum günüdür. İndi atamın ruhu buradadır. Deməli, unudulmayıb...

# YERLİ QAZ SAYĞACLARINDA CİDDİ PROBLEM YAŞANMAYIB



Yerli istehsal olan sayğaclardan istifadə edilməsi maliyyə baxımından daha uyğundur. Bu, ölkədən xarici valyutanın çıxmasının qarşısını alır.

"İndiyə qədər "Gəncə Cihazqayırma Zavodu" ASC-nin istehsal etdiyi və Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin tətbiq etdiyi qaz sayğaclarında ciddi bir problem yaşanmayıb". "Report" xəbər verir ki, bunu "Azəriqaz"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev jurnalistlərə açıqlamasında bildirib.

"Təbii ki, kiçik istisnalar hər zaman mövcuddur. Biz "Gəncə Cihazqayırma Zavodu"nun istehsal etdiyi məhsullarla hələ ki, ciddi bir problem yaşamamışıq. Ümid edirik ki, bundan sonra da problem yaşamayacağıq. Bundan sonrakı addımlarımız da zavodun məhsullarının istehsalına rəvac verəcək", - deyə o qeyd edib.



Eldəniz Vəliyev

Foto: Sabir Məmmədov - Global Photostock

### 500 MİNƏ YAXIN QAZ SAYĞACI ALINIB

"Azəriqaz" rəsmisi deyib ki, indiyə qədər onlar zavoddan 500 minə yaxın qaz sayğacı və 300-ə yaxın ölçü qovşağı alıblar və tətbiq edirlər: "Artıq Bakı və Abşeron daxil olmaqla, Azərbaycanın istənilən regionunda bu sayğaclar tətbiq edilir. Onlar beynəlxalq standartlara uyğun istehsal olunur. Tələbatın artması nəzərə alınaraq, "Gəncə Cihazqayırma Zavodu"nun istehsal gücünü artırması gündəmdədir.

"Bu zavodun məhsullarına ona görə üstünlük verilib ki, ilk növbədə dövlət başçısı daim yerli sahibkarlığın stimullaşdırılması ilə bağlı dövlət qurumlarına göstərişlər verir. "Azəriqaz" da bunu nəzərə alaraq, məhz "Gəncə Cihazqayırma Zavodu" ilə əməkdaşlıq edir. Bunun üstünlükləri də var. Xaricdən idxal olunan cihazlarla bağlı hansısa problem yarananda onların təmirini həyata keçirə bilmirdik. Burada logistika çox böyük önəm daşıyır".

### MALİYYƏ BAXIMINDAN DAHA UYĞUNDUR

Eldəniz Vəliyev bildirib ki, belə sayğacların istehsalçı ölkəyə qaytarılması, təmiri və yenidən istismara buraxılması böyük prosesdir, maliyyə imkanlarına bağlı məsələdir. Bu baxımdan "Gəncə Cihazqayırma Zavodu" ilə problem yaşanmır: "Çünki Azərbaycanda bu prosesin reallaşması daha tez və maliyyə baxımından daha uyğundur. Bu, eyni zamanda ölkədən xarici valyutanın çıxmasının qarşısını alır. Bu baxımdan da güman edirik ki, "Azəriqaz"ın "Gəncə Cihazqayırma Zavodu" ilə əməkdaşlığı çox böyük avantajdır. Eyni zamanda, zavodda xeyli sayda insan çalışır ki, bu da işsizlik probleminin aradan qaldırılmasında prioritet hesab olunur", - deyə o əlavə edib.





# "NAR" MAĞAZALARINDA İNKLÜZİV XİDMƏT ÜÇÜN HAZIRLIQLARA START VERİLDİ

Sərfəli xidmətləri ilə yanaşı, sosial layihələri ilə də tanınan "Nar" inklüziv cəmiyyətin qurulmasına yönəlmiş təşəbbüslərini davam etdirir. "Biz Hamımız Birik" adlı yeni DEIB (Diverislik, Bərabərlik, İnklüzivlik və Mənsubiyyət) strategiyası çərçivəsində şirkət həm əməkdaşlar, həm də müştərilər üçün bərabər, anlayışlı və əlçatan mühitin yaradılmasına töhfə verir.

Təşəbbüsün ilk mərhələsi kimi, "Nar"ın ön ofis əməkdaşları üçün işarə dili üzrə təlimlərə start verilir. Bu təşəbbüs eşitmə məhdudiyyətli şəxslərlə effektiv ünsiyyət qurmaqla xidmətlərin tam əlçatan olmasını təmin etməyi hədəfləyir. Təlimlər təcrübəli və sertifikatlı eşitmə məhdudiyyətli şirkət əməkdaşları tərəfindən aparılacaq ki, bu da öyrənmə prosesinə həm real təcrübə, həm də dəyər qatır.

Layihənin növbəti mərhələsində eşitmə məhdudiyyətli şəxslərin ehtiyaclarını dərindən analiz edərək, onlar üçün xüsusi olaraq dizayn edilmiş sərfəli və rahat məhsullar, eləcə də Çağrı Mərkəzi dəstəyi təqdim olunacaq. Məqsəd - bu icma üzvlərinə gündəlik həyatlarında maneəsiz kommunikasiya imkanı yaratmaq və onların real ehtiyaclarına cavab verən xidmətlər təqdim etməkdir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq, sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "BAKCELL" SÜNİ İNTELLEKT TƏLİMİ TƏŞKİL ETDİ

İnnovasiya və sürət lideri "Bakcell" media nümayəndələrinə "Süni intellektin iş mühitində tətbiqi" mövzusunda növbəti təlim təşkil edib. Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü çərçivəsində keçirilən tədbirdə 50-dən çox media nümayəndəsi iştirak edib.

Təlimin əsas məqsədi jurnalistləri süni intellekt sahəsində ən son trendləri ilə tanış etmək, dəyişən dünyada innovasiya və son dövr yeniliklərin mediada tətbiqi ilə bağlı praktik tövsiyələr vermək olub. Təlim zamanı süni intellektin telekommunikasiyada rolu və "Bakcell"in süni intellekt əsaslı məhsul və xidmətləri ilə bağlı ətraflı məlumat verilib. Tədbir çərçivəsində iştirakçılar süni intellektin kommunikasiya sahəsində istifadəsinə dair əhatəli biliklər qazanıblar.





Bu təşəbbüs "Bakcell"in innovasiya və süni intellekt strategiyası çərçivəsində rəqəmsal həllərin cəmiyyət üçün faydaya çevrilməsi istiqamətində atdığı ardıcıl və məqsədyönlü addımların növbəti nümunəsidir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1077
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ARTIQ YAĞANDA DƏRD VERİR YAĞIŞ DA...



Havaların dəyişkən keçməsi, davamlı yağış yağması məhsul əkilən bölgələrimizdə ciddi fəsadlara yol açıb. Quba və Qusar ərazisində yağan yağışlar əkin sahələrinə ziyan vurub. Bunun məhsuldarlığa mənfi təsir edəcəyi proqnozlaşdırlır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son günlərdə ölkəmizdə yağıntı miqdarının normadan dəfələrlə artıq müşahidə edilməsi kənd təsərrüfatı sahəsinə də ciddi ziyan vurmaqdadır. Əvvəlki dövrlərdə bu aylarda artıq bazarlarda bir çox mövsümi meyvə-tərəvəzlərə rast gəlirdik. Lakin havaların yağışlı keçməsi bu il üçün heç də üzümüzü güldürmür. Belə vəziyyətdə çoxumuzu bir sual düşündürür: havanın belə qeyri-sabit keçməsi kənd təsərrüfatına necə təsir göstərəcək? Bunun bazardakı qiymətlərə təsiri olacaqmı?

### YAĞIŞLI HAVALAR ƏN ÇOX ŞİMAL BÖLGƏSİNƏ ZİYAN VURUB

Aqrar ekspert Eldar Hüseynovun sözlərinə görə, yağışlı havalar ən çox şimal bölgəsinə ziyan vurub: "Havaların dəyişkən keçməsi, davamlı yağışların yağması kənd təsərrüfatı üçün çox pis oldu. Məhsul əkilən bölgələrimizdə ciddi fəsadlar var. Quba və Qusar ərazisində yağan leysan yağışları nəticəsində 80 min hektar əkin sahəsi ciddi ziyan görüb. Bəzi yerlərdə məhsulları yenidən əkirlər. Bu isə onların yetişməsində gecikməyə səbəb ola bilər. Şimal bölgələrində məhsulların gecikməsi digər ərazilərə görə, daha çox müşahidə ediləcək. Həm də havalar belə olduğu dövrdə məhsullarda xəstəliklər də yayılır. Bunun qarşısını almaq da xeyli çətin olacaq".

### HANSI MƏHSULLARA ZİYAN DƏYİB?

E.Hüseynov bildirdi ki, Mil-Muğan zonasında bu dövrlərdə bir çox məhsullar, tərəvəzlər yetişirdi. Lakin bu il həmin zonada da məhsulların yetişməsində gecikmələr var: "Açıq havada əkilən pomidorun da bazara çıxmasında gecikmələr olacağı gözlənilir. Bu gedişlə qarpızın da yetişməsi uzanacaq. Qeyri-sabit hava şəraiti ən çox tərəvəzlərə təsir edəcək. Tərəvəz seqmentində ən çox ziyan görən pomidordur. Soğana xeyli ziyan dəyib. Meyvələr üçün isə elə də böyük risk mövcud deyil".

Ekspert qeyd etdi ki, taxıl məhsulları da yağışdan ziyan görən məhsullar siyahısındadır: "Taxıla da yağıntılar xeyli ziyan vurub. Bəzi sahələrdə kiflənmə, yatma müşahidə edilir. Normalda may ayının 20-dən arpa yığımı başlayacaq, iyunda isə buğda biçiləcək. Havalar bir az isindiyi təqdirdə bu məhsullarla bağlı problemlər aradan qalxa bilər".

### İXRAC OLUNAN MƏHSULLARLA BAĞLI HEÇ BİR PROBLEM OLMAYACAQ

Ekspertin fikrincə, yağıntılarla əlaqədar məhsullar az olacağından, qiymətlərin də artacağı qaçılmazdır: "Keçən il bu ildən daha çox məhsul əkilmişdi. Məsələn, keçən il 10 hektar badımcan əkilmişdisə, bu il bu rəqəm 2 hektardır. Pomidor bu il daha çox əkilib. Lakin daşqınlar səbəbindən əksəriyyəti tələf oldu. Aran zonasında Beyləqan və Yevlaxda pomidorları don vurdu. Bu səbəbdən pomidor ilk dövrlərdə baha ola bilər. Lakin payıza doğru bahalaşma səngiyəcək". E.Hüseynov bildirdi ki, ixrac olunan kənd təsərrüfatı məhsulları ilə bağlı heç bir problem olmayacaq: "Çünki ixrac üçün əsasən istixanalarda yetişdirilən məhsullar göndərilir".



Eldar Hüseynov



Rauf Qarayev

## "Aqroparklar yaradılmalıdır"

İqtisadçı Rauf Qarayev də qeyd etdi ki, yağıntılardan ən çox ziyan görən tərəvəzlərdir: "Yağış mütəmadi olaraq müşahidə olunarsa, yeraltı suların qalxması müşahidə edilir. Nəticədə insanlar əkdikləri tərəvəzləri yığa bilmirlər. Məhsul məhv olduğu üçün bazarda qiymətlərin yüksəlməsi müşahidə olunur". R.Qarayev daxili bazarda qiymətlərin yüksəlməməsi üçün aqroparkların yaradılmasını zəruri sayır: "Aqroparklarda istənilən məhsulu yetişdirə bilərik. İqlim dəyişikliyi, yağıntılar aqroparklara təsir etmir. Belə olarsa, artıq bazarda məhsul qıtlığı da yaranmayacaq".

## İDXALDAN ASILILIQ ARTACAQ

R.Qarayevin sözlərinə görə, kənd təsərrüfatı məhsulları ilə bağlı qıtlığı aradan qaldırmaq üçün idxala da yönələ bilərik: "Əgər yağıntılar səbəbindən ölkəmizdə məhsul qıtlığı yaranarsa, digər ölkələrdən idxal edə bilərik. İdxal istiqamətlərinə İran, Gürcüstan, Türkiyə, Rusiyanı daxil etmək olar".

Ekspert düşünür ki, artıq aqrar strategiyamızı dəyişməliyik: "Bütün dünyada iqlim dəyişir. Dünyada da isti regionlar soyuyur, şimal regionlarda istiləşmə baş verir. Bu da o deməkdir ki, artıq cənubda yetişən məhsullar şimalda da yetişdirilə bilər və ya əksinə. Bu səbəbdən ölkəmizin kənd təsərrüfatı strategiyasında dəyişiklik edə bilərik. Bunu edə bilsək, havaların sərt, qeyri-sabit keçməsi kənd təsərrüfatına o qədər də təsir etməz".

R.Qarayevin fikrincə, havaların yağışlı keçməsindən istifadə etməliyik: "Çünki kənd təsərrüfatı sahəsində su çatışmazlığı yaranır. Bunun qarşısını almaq üçün süni göllər yaradılmalıdır. Ölkəmizdə yağış sularından yetərincə istifadə edilmir. Yağışlı havanın çox olması daşqınların yaranmasına səbəb olur. Bu, bir çox hallarda məhsullara ziyan vurur. Bunun qarşısının alınması üçün bəndlərin möhkəmlənməsi işləri də aparılmalıdır".

# STOMATOLOQLAR NARAZIDIR...

TƏBİB-in dövlət müəssisələrində çalışan stomatoloqlardan hər iş otağı üçün paytaxtda aylıq 1 800 manat, bölgələrdə isə 1 200 manat pul tələb etməsi barədə yayılan məlumatlar narazılıqlara səbəb olub. Stomatoloqlar yanaşmanın doğru olmadığını bildirirlər.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda fəaliyyət göstərən bir qrup stomatoloq TƏBİB-in (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi) stomatoloji müəssisələrdən pul tələb etdiyini bildirir. Stomatoloqlar sosial şəbəkələrdə iddia edirlər ki, TƏBİB dövlət müəssisələrində çalışan stomatoloqlara hər iş otağı üçün aylıq 1 800 manat, bölgələrdə isə 1 200 manat pul tələb edir. Həkimlər bildirirlər ki, icarə haqqı məsələsi peşə fəaliyyətinə və maddi rifaha ciddi təsir göstərən problemdir.

### "DÖVLƏT POLİKLİNİKALARI BAĞLANA BİLƏR"

Stomatoloq Tural Mirzəyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, bu tələbin heç bir hüquqi əsası yoxdur: "Xarici ölkələrdə stomatoloji xidmətin ən azı 70%-i sığorta hesabına qarşılanır. Hazırda dövlət poliklinikalarında kifayət qədər sosial durumu aşağı olan insan stomatoloji xidmət alır. TƏBİB bu tələbi irəli sürməklə dövlət poliklinikalarının bağlanmasına və ictimai narazılıqlara səbəb olacaq".

### "1200 MANATI HARADAN TAPIB ÖDƏYƏCƏK?"

Həkim vurğulayır ki, hər kəsin maddi durumu özəl stomatoloji kabinetlərdə xidmət almağa imkan vermir: "Rayonlarda durum daha acınacaqlıdır. Kənd yerində çalışan stomatoloq 1200 manatı haradan tapıb ödəyəcək? TƏBİB-in stomatoloji xidmətin keyfiyyətindən xəbəri varmı? Materialları belə həkimlər özləri alır. Dünyanın harasında uşaq stomatologiyası dövlət poliklinikasında ödənişlidir?!".

Tural Mirzəyev deyir ki, 1200 və 1800 manatlıq "plan" tələbi, nə tibbi prinsiplərə, nə də real iqtisadi və sosial şəraitə uyğundur: "Bu "plan"lar həkimlərə qarşı maddi və psixoloji təzyiq vasitəsinə çevrilib. Bu sistem yalnız vicdanla çalışan həkimlərə deyil, ümumilikdə stomatoloji xidmətlərin keyfiyyətinə mənfi təsir göstərir. Məlum qərarlar fonunda tibbi və stomatoloji təhsili olmayan, qanunsuz şəkildə diş müalicəsi və protezləşmə ilə məşğul olan şəxslərə qarşı hansısa cəza tədbiri görülmür. Əksinə, təhsilli, lisenziyalı və peşəkar stomatoloqlara qarşı təzyiqlər artır, işdən çıxarılma təhlükəsi ilə qarşı-qarşıya qalırlar".

### "BU, VƏTƏNDAŞLARIN ÜZƏRİNDƏ ƏLAVƏ MALİYYƏ YÜKÜ YARADACAQ"

Almaniyada stomatoloq kimi fəaliyyət göstərən həmyerlimiz Pərviz Rəhimli bildirir ki, xüsusilə bölgələrdə fəaliyyət göstərən həkim-stomatoloqlar üçün bu qərar maliyyə baxımından əlavə yük yarada bilər: "Ödənişlərin məqsədi və hüquqi əsaslandırması tam şəkildə izah olunmadığı üçün bu, şəffaflıq və ədalətlilik prinsipləri ilə bağlı suallar doğurur. Qeyd etmək yerinə düşər ki, 2022-ci ildə Mannheim şəhərində TƏBİB nümayəndələri ilə keçirilən görüş zamanı stomatoloqların fəaliyyəti ilə bağlı verdiyimiz sual cavablandırılarkən, Azərbaycanda stomatologiyanın ən çətin nəzarət olunan sahələrdən biri olduğu vurğulandı. Bu yanaşma nəzarətin zəruriliyini göstərsə də, sahədəki dərin struktur problemlərin - qeyri-leqal fəaliyyət, lisenziyasız klinikalar, saxta həkimlər və haqsız rəqabətin - hələ də sistemli şəkildə həll olunmadığını ortaya qoyur. Belə bir şəraitdə stomatoloqlara əlavə aylıq ödəniş tələbinin irəli sürülməsi, xüsusilə dövlət klinikalarında çalışan, vicdanla və protokollara uyğun işləyən mütəxəssislər üçün ciddi çətinliklər yarada bilər. Bu ödənişi ödəməyə məcbur edilən həkimlər istər-istəməz göstərilən xidmətlərin qiymətini artırmağa məcbur qalacaq və bu da birbaşa olaraq vətəndaşların üzərinə əlavə maliyyə yükü qoyacaq".

## "Almaniyada otaq üçün rüsum alınmır"

Həkim müqayisə üçün Almaniya modelinə nəzər salmağı faydalı hesab edir: "Almaniyada stomatoloqlardan müalicə otağı üçün sabit aylıq rüsum alınmır. Stomatoloqlar - istər dövlət, istər özəl klinikalarda - protokollara uyğun işləmək, keyfiyyətli tibbi xidmət göstərmək və pasiyent məmnuniyyətini təmin etmək öhdəliyi daşıyırlar. Qarşılığında isə ya sabit yüksək maaş alırlar, ya da klinikaya gətirdikləri gəlirə əsasən maaş və bonuslarla təmin olunurlar. Eyni zamanda, onlar yüksək vergi öhdəliklərini yerinə yetirirlər. Ən əsası, Almaniyada stomatoloji xidmətlərin maliyyə modeli göstərilən xidmət və sığorta sistemləri üzərində qurulub. Bu model həm stomatoloqların fəaliyyətini sabit və şəffaf şəkildə davam etdirməsinə, həm də pasiyentlərin daha əlçatan və keyfiyyətli xidmət almasına imkan yaradır".

Həmsöhbətimiz vurğulayır ki, Azərbaycanda da stomatoloji sahədə islahatlar həyata keçirilərkən beynəlxalq təcrübə, xüsusilə şəffaf və effektiv idarəetmə modelləri nəzərə alınmalıdır: "Əlavə rüsumların tətbiqi arzuolunan nəticələri verməyəcək, əksinə, peşəkar stomatoloqların fəaliyyətini daha da çətinləşdirəcək və vətəndaşlara göstərilən xidmətin keyfiyyətinə mənfi təsir göstərəcək".

## Bəs TƏBİB nə deyir?

Sorğumuza cavab olaraq TƏBİB-dən bildirildi ki, müəssisələrin maliyyə uçotundan yayınması halları müşahidə edilib: "Son dövrlərdə stomatoloji xidmətlərin təşkili və bu sahədə şəffaflığın artırılması məqsədilə müəyyən təhlil və qiymətləndirmə işləri aparılıb. Bu qiymətləndirmələr zamanı müxtəlif regionlarda fəaliyyət göstərən stomatoloqların xidmət həcmi və mövcud şərait araşdırılıb. Ödənişlərin rəsmi, nağdsız ödəniş sistemi üzərindən keçirilməməsi, yəni müəssisənin maliyyə uçotundan yayınması halları müşahidə edilib".

TƏBİB vurğulayır ki, qarşılıqlı əməkdaşlıq və açıq dialoq prinsiplərinə əsaslanaraq həm stomatoloji xidmət göstərən həkimlərin, həm də pasiyentlərin maraqlarını qorumağa davam edəcək: "Bununla belə, konkret plan və ya öhdəliklərin rəsmi şəkildə tətbiq edilməsi barədə hər hansı qərar qəbul edilməyib. Hazırda məsələ yalnız müzakirə və təklif mərhələsindədir. TƏBİB rəhbərliyinin iştirakı ilə bir qrup həkim-stomatoloqla müzakirələr aparılıb və danışıqlar müsbət nəticə ilə bitib".

Məlumat üçün bildirək ki, bir qrup stomatoloq yeni tələb və qaydaların yaratdığı sualları aydınlaşdırmaq üçün qurumun binasında toplaşıblar. Onlar jurnalistlərə açıqlamasında etiraza səbəb olan məsələlərə TƏBİB tərəfindən aydınlıq gətirildiyini bildiriblər.



Pərviz Rəhimli



Tural Mirzəyev

DİSTANT TƏHSİLLƏ BAĞLI YENİ DÖVLƏT STANDARTLARI QƏBUL EDİLİB

# HÜQUQİ, TEXNİKİ VƏ METODOLOJİ BOŞLUQLAR

Distant təhsil xidmətlərinin təşkili ilə bağlı yeni dövlət standartının qəbul edilməsi distant təhsillə bağlı müzakirələri yenidən aktuallaşdırıb. Ekspertlər hesab edirlər ki, təkcə standart qəbul etməklə distant təhsili reallaşdırmaq mümkün olmayacaq.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Distant təhsil müəllim və tələbələrin şəxsən görüşmədiyi təhsil prosesidir. Bu təhsilin mahiyyəti ondan ibarətdir ki, materialın öyrənilməsinin bütün mərhələləri - mühazirə və təcrübədən imtahanlara, həmçinin digər testlərə qədər onlayn şəkildə baş verir. Müəllimlər və tələbələr arasında qarşılıqlı əlaqə videozənglər, söhbətlər və onlayn simulyatorlar kimi internet texnologiyaları üzərindən həyata keçirilir.

2020-ci ildə distant təhsilə tələbat kəskin şəkildə artdı, hətta əvvəllər yalnız oflayn rejimdə dərs deyən müəllimlər də pandemiya zamanı bu formata keçdilər. Eyni zamanda, onların yarısı gələcəkdə onlayn texnologiyalardan istifadəni davam etdirməyi planlaşdırırdı. Bu gün də tələbələrin yarıdan çoxu distant təhsilə üstünlük verir. Eyni zamanda, müəllimlərin və tələbələrin müəyyən faizi distant əldə edilən biliklərin keyfiyyətinin daha yüksək olduğuna inanır. İşəgötürənlər də onlayn öyrənməyə müsbət yanaşırlar. Üstəlik, dünyada şirkətlərin 80%-i iş prosesində distant formatından istifadə edir.

Azərbaycanda 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" qanunda təhsilalma formalarından biri kimi distant təhsil nəzərdə tutulsa da, bu istiqamətdə konkret addım atılmayıb.

### STANDART İLKİN HÜQUQİ BAZA OLA BİLƏR

Bugünlərdə Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTAND) distant təhsil xidmətlərinin təşkili ilə bağlı yeni dövlət standartı qəbul etməsi bu sahədə ümid qığılcımı közərdib. Bu standart distant təhsil xidmətlərinin göstərilməsi, layihələndirilməsi, monitorinqi və qiymətləndirilməsi proseslərini əhatə edir. Eyni zamanda, bu sahədə beynəlxalq normalara uyğunluğun təmin olunmasına xidmət edir. Təşkilatın məlumatında bildirilir ki, yeni standartın tətbiqində əsas məqsəd müasir texnologiyaların imkanlarından istifadə etməklə təhsil sistemində çevikliyi və əlçatanlığı artırmaq, eyni zamanda vətəndaşlara yerindən asılı olmayaraq, keyfiyyətli təhsil almaq üçün geniş imkanlar yaratmaqdır. Bununla belə, ekspertlər hələ ki, hazırda təsdiqlənən qaydaları distant təhsilin ölkəmizdə tam tanınması kimi qəbul etmirlər. Hesab edirlər ki, bu, sadəcə gələcəkdə bu təhsilin Azərbaycanda tanınmasına imkan verəcək ilkin hüquqi baza rolunu oynaya bilər.

Təşkilatın yeni standartı həmçinin "bizdə distant təhsilə hazırlıq hansı səviyyədədir?", "bu formata keçid gələcəkdə diplomların tanınması və işəgötürmədə problemlər yarada bilərmi?" və s. tipli sualları da meydana çıxarır.

## VƏTƏNDAŞLARIN DA BU MƏSƏLƏ İLƏ BAĞLI NARAHATLIĞI VAR

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov bu standartın hazırlanmasını vacib hesab edir: "Bu məsələ uzun illərdir cəmiyyətdə geniş müzakirə olunurdu. Bütün hallarda bu standartın qəbul edilməsi təhsilimizə öz töhfəsini verəcək və inkişafı üçün daha da imkanlar yaradacaq". C.Məmmədovun fikrincə, ancaq təkcə standartın qəbulu yetərli deyil. Standartlarla yanaşı, qanunun da qəbuluna ehtiyac var, eyni zamanda Nazirlər Kabineti bu istiqamətdə addımlar atmalıdır: "Milli Məclisdə bir müddət əvvəl hazırlanan "Ali təhsil haqqında" qanunda bu məsələ ilə bağlı müəyyən müddəalar yer tapmışdı. Nəzərdə tutulmuşdu ki, "Distant təhsil haqqında" qanunda bu cür məsələlər yer alsın. Hesab edirəm ki, ən qısa vaxtda bu haqda qanunun qəbuluna ehtiyac var və bu istiqamətdə müəyyən addımlar atmalıyıq". Millət vəkili qeyd edir ki, bu gün Azərbaycan təhsilində tez-tez rastlaşdığımız problemlərdən biri də distant təhsillə bağlı diplomların tanınmamasıdır: "Vətəndaşlar tez-tez bu məsələ ilə bağlı bizə müraciət edir, narahatlıqlarını bildirirlər. Diplomların tanınmaması və qəbil edilməməsi çıxış yolu deyil. Biz bu istiqamətdə mütləq ciddi düşünməli, qərar qəbul edib real prosesə başlamalıyıq. Əks halda, bu istiqamətdə müzakirələrin və narahatlıqların davam etməsinin şahidi olacağıq".



## CİDDİ AKKREDİTASİYA MEXANİZMLƏRİ OLMALIDIR

ADA Universitetinin baş müəllimi, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın (İŞ) üzvü Orxan Kərimzadənin sözlərinə görə, dünyada distant təhsilə keçid prosesi son illərdə, xüsusilə pandemiya dövründən sonra sürətlənib. ABŞ, Böyük Britaniya, Avstraliya kimi inkişaf etmiş ölkələrdə universitetlərin əksəriyyəti distant və hibrid təhsil formatlarını uğurla tətbiq edir: "Bu ölkələrdə distant təhsilin keyfiyyəti və tanınması üçün ciddi akkreditasiya mexanizmləri mövcuddur. UNESCO və digər beynəlxalq qurumlar da distant təhsilin keyfiyyətinə dair standartlar hazırlayır və tətbiqini təşviq edir". O.Kərimzadə bildirir ki, Azərbaycanda distant təhsilə keçid üçün ilkin addımlar atılsa da, hələ də hüquqi, texniki və metodoloji çərçivədə boşluqlar var: "Yeni qəbul olunan AZSTAND standartı müsbət təşəbbüsdür, lakin bu sahənin tam hüquqi bazasını formalaşdırmaq üçün ilk növbədə "Ali təhsil haqqında" yeni qanun qəbul olunmalıdır. Daha sonra Nazirlər Kabineti distant təhsilin təşkili, qiymətləndirilməsi, müəllim hazırlığı, texniki infrastruktur və akkreditasiya qaydalarını müəyyən etməlidir. Eyni zamanda, təhsil müəssisələri öz proqramlarını distant formaya uyğunlaşdırmalı və müəllim heyəti bu formatda tədris aparmaq üçün təlimlərdən keçməlidir". İŞ üzvü hesab edir ki, gələcəkdə diplomların tanınması məsələsində problemin yaranmaması üçün distant təhsilin keyfiyyəti və şəffaflığı təmin olunmalıdır: "Beynəlxalq praktikada diplomun distant və ya əyani alınmasından çox, proqramın akkreditasiyası və ali təhsil müəssisəsinin nüfuzu əsas götürülür. Əgər Azərbaycan distant təhsil proqramlarını beynəlxalq standartlara uyğun qurarsa, bu cür problemlər minimal olacaq". O.Kərimzadə ümumiyyətlə, bu təhsil formatını əhəmiyyətli hesab edir: "Distant təhsilin əhəmiyyəti böyükdür. Bu format regionlarda yaşayan, işləyən və ya əlilliyi olan şəxslərin təhsilə çıxışını artırır".



Orxan Kərimzadə



Ceyhun Məmmədov

# BÖYÜK PERSPEKTİVLƏR VƏD EDƏN SAHƏ

Əşyaların interneti qlobal bazarda sürətlə böyüyən və yüksək gəlir gətirən bir sahədir. Bu bazarın gəlirləri ölkələrin texnoloji inkişaf səviyyəsi və bu sahəyə ayırdıqları investisiyalarla birbaşa əlaqəlidir.



SEVİNC ABBASOVA

Bu il Azərbaycanda əşyaların interneti (IoT) bazarının 463,10 milyon ABŞ dolları gəlir əldə edəcəyi gözlənilir. "Statista" portalının proqnozuna görə, bu, illik 10,2 faiz artım deməkdir.

Mütəxəssislər hesab edirlər ki, Azərbaycan ağıllı şəhərlərə və enerji idarəetmə həllərinə diqqət yetirməklə əşyaların interneti bazarında sürətli artım yaşayır. Əşyaların interneti bazarının müxtəlif seqmentləri arasında Əşyaların Sənaye İnterneti (IIoT) seqmenti 119,70 milyon ABŞ dolları həcmində dəyərlə üstün mövqeyə sahib olacaq. 2025-2029-cu illərdə ölkədə əşyaların interneti bazarında gəlirin illik 10,68 faiz artacağı və 2029-cu ildə bazar həcminin 694,90 milyon ABŞ dollarına çatacağı proqnozlaşdırılır.

Bəs görəsən, əşyaların interneti nə deməkdir? Bu sahənin hansı perspektivləri var?

Əşyaların interneti qlobal bazarda sürətlə böyüyən və yüksək gəlir gətirən bir sahədir. IoT bazarının gəlirləri ölkələrin texnoloji inkişaf səviyyəsi və bu sahəyə ayırdıqları investisiyalarla birbaşa əlaqəlidir. Gəlirləri əsasən müxtəlif sahələrdə tətbiqindən və innovativ həllərdən qaynaqlanır. 2024-cü ilin statistikasına görə, IoT bazarının qlobal gəliri bir trilyon dollara yaxınlaşıb və hər il təxminən 20-25 faiz böyüyür. 2030-cu ilə qədər bu bazarın altı trilyon dolları keçəcəyi proqnozlaşdırılır.

Hazırda IoT sahəsində ən yüksək gəlir əldə edən ölkələr arasında ABŞ, Çin və Almaniya kimi sənaye nəhəngləri ön plandadır.

## "BU TEXNOLOGİYANIN İNKİŞAF POTENSİALI BÖYÜKDÜR"

"İKT LAB" Tətbiq və Tədris Mərkəzinin Tədris və inkişaf sektorunun müdiri Ayaz Kərimovun fikrincə, IoT artıq gündəlik həyatımızın və sənayenin ayrılmaz hissəsinə çevrilib: "Bu texnologiya fiziki obyektlərin - yəni cihazların, sensorların və proqramların internet vasitəsilə bir-biri ilə əlaqə qurmasını və məlumat mübadiləsini təmin edir. Məsələn, ağıllı evlərdə işıqların və istilik sistemlərinin uzaqdan idarə olunması, sənayedə avadanlıqların monitorinqi və avtomatlaşdırılması kimi tətbiqlər IoT-nin gündəlik həyatda necə istifadə olunduğunu göstərir".

Mütəxəssis hesab edir ki, bu texnologiyanın inkişaf potensialı böyükdür: "Bir neçə əsas istiqamətə toxunaq. Məsələn, smart evlər və şəhərlər - enerji səmərəliliyinin artırılması, təhlükəsizlik sistemlərinin gücləndirilməsi və ümumi yaşayış keyfiyyətinin yaxşılaşdırılması üçün qurulmuş ağıllı infrastrukturdur. "Sənaye 4.0" sağlamlıq və tibdə uzaqdan xəstə monitorinqi, tibbi cihazların izlənilməsi və erkən diaqnostika kimi imkanların yaradılmasını nəzərdə tutur. Kənd təsərrüfatında məhsuldarlığın artırılması, su və gübrə istifadəsinin optimallaşdırılmasına imkan yaradır. Nəqliyyat və logistikada avtomatlaşdırılmış nəqliyyat sistemləri, real vaxt izləmə və marşrut planlamasını nəzərdə tutur".

## "XƏRCLƏR AZALIR, YENİ BİZNES MODELLƏR YARANIR"

A.Kərimovun sözlərinə görə, bu bazar müxtəlif məhsul kateqoriyalarını əhatə edir: "IoT bazarı olduqca genişdir. Bu bazara ağıllı ev avadanlıqları, ağıllı termostatlar, ağıllı işıqlandırma sistemləri, təhlükəsizlik kameraları və siqnalizasiya sistemləri, ağıllı ev mərkəzləri və sensorlu smart saatlar, sağlamlıq monitorinq cihazları, istehsalat proseslərini izləyən sensorlar, avtomatlaşdırma sistemləri və nəzarət cihazları, avtomobil sensorları və əlaqə sistemləri, yük və daşınma vasitələrinin izlənməsi, hava keyfiyyəti sensorları, su və enerji monitorinq sistemləri və sair daxildir. Bütün bu məhsullar və texnologiyalar həyatımızı asanlaşdırır, əməliyyat xərclərini azaldır və yeni biznes modellərinin yaranmasına şərait yaradır. İnanıram ki, gələcəkdə IoT həm fərdi istifadəçilər, həm də müəssisələr üçün böyük əhəmiyyət kəsb edəcək. Demək olar ki, həyatımızın hər sahəsində inqilab edəcək".



Ayaz Kərimov

## ƏŞYALARIN İNTERNETİ ARTIQ EVİMİZDƏDİR

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov bildirib ki, son illər ölkəmizdə əşyaların interneti bazarının payı kifayət qədər artıb: "Texnologiyanın inkişafı həyatımızı əhəmiyyətli dərəcədə dəyişir. Bu irəliləyiş nəticəsində informasiya texnologiyaları sahəsində əşyaların interneti anlayışı meydana çıxıb. Əşyaların interneti müxtəlif obyektlərin internet vasitəsilə insan müdaxiləsi olmadan funksiyalarını yerinə yetirən bir sistemdir. Artıq evimizdəki müxtəlif əşyalar müəyyən qədər internetlə ünsiyyətdədirlər. Misal üçün, əgər smart qurğular qapımızı, pərdələrimizi açıb-bağlayırsa, elektrik avadanlıqlarını söndürüb-yandırırsa, bu o deməkdir ki, evimizdə əşyaların interneti anlayışından istifadə edirik".

### KOMMUNAL MÜNASİBƏTLƏR RƏQƏMSAL FORMADA TƏNZİMLƏNƏCƏK

Ekspert deyib ki, hazırda dövlət qurumlarında bəzi xidmətlər əşyaların interneti texnologiyasına çevrilir: "Məsələn, qaz və işıq sayğacları ağıllı olacaq. İnsanlar belə sayğaclara müdaxilə etməyəcəklər. Sayğacın özünün interneti olacaq və vətəndaş hər hansısa bank və ya ödəmə sistemindən ödəniş etdiyi zaman pul sistemə köçürüləcək. Hazırda ağıllı sayğac anlayışının yenilənməsini gözləyirik. Burada bir neçə pilot layihə müşahidə olunur. Onları əsasən "Azərişıq" və "Azəriqaz" kütləvi olmayan formada tətbiq edib. Hələlik sistem sınaqdan keçirilir. Ağıllı cihazların tətbiqinə çalışmaqda məqsəd odur ki, insanların qapıları qaz, su, işıq puluna görə döyülməsin. Həmin sahə inzibatçıları vətəndaşlarla birbaşa ünsiyyətə girməsinlər və ödənişlər birbaşa, internetə bağlanaraq köçürülsün".

Ekspertin sözlərinə görə, Azərbaycanda yaxın beş il ərzində kommunal münasibətlər rəqəmsal formada tənzimlənəcək: "Bununla sayğacların tamamilə internetə bağlanması, vətəndaşların onlayn vasitələrlə ödəniş etməsi, sayğacların birbaşa açılması mümkün olacaq".



Elvin Abbasov

YENİ QANUNUN TƏTBİQİ İLƏ HƏM VƏTƏNDAŞLARIN, HƏM DƏ BÜDCƏNİN YÜKÜ AZALACAQ

# KOMBİ ERASI BAŞA ÇATIR?




“İstilik təchizatı haqqında” yeni qanun layihəsi hazırlanıb. Qanun layihəsinə əsasən, tikiləcək yeni binalarda artıq yalnız mərkəzi istilik sistemləri quraşdırılacaq.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

“İstilik təchizatı haqqında” yeni qanun layihəsi hazırlanıb. Qanun layihəsinə əsasən, bundan sonra tikiləcək mənzillərdə mərkəzi istilik sistemləri quraşdırılacaq. Bu reallaşarsa, daha yeni tikilən binalardakı mənzillərdə kombi quraşdırılmasına ehtiyac olmayacaq.

Qanun layihəsinə əsasən, çoxmənzilli yaşayış binalarında hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasının nəzərdə tutulmasına yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilən hallarda yol verilir. Halların mövcudluğuna hər bir bina üzrə Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən, tikinti layihələrinin ekspertizadan keçirilməsi zamanı baxılır. Çoxmənzilli yaşayış binalarının şəbəkəyə qoşulması və ya həmin şəbəkədən ayrılması yalnız binanın mənzil mülkiyyətçiləri və ya onları təmsil edən mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, idarəedici təşkilatın paylayıcıya yazılı müraciəti əsasında həyata keçiriləcək. Qanun qüvvəyə mindikdən sonra şəbəkəyə qoşulan və şəbəkə vasitəsilə istilik təchizatı təmin edilən çoxmənzilli yaşayış binalarında ayrı-ayrı mənzillər üzrə təbii qaz ilə qidalanan fərdi istilik sistemlərinin quraşdırılmasına və istismarına yol verilməyəcək.

### “HƏM VƏTƏNDAŞLARIN, HƏM DƏ BÜDCƏNİN YÜKÜ AZALACAQ”

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Naqif Həmzəyev bu sahədə müəyyən problemlər olduğunu bildirdi: “Təəssüflər olsun ki, mərkəzi istilik təchizatının təmin edilməsi ilə bağlı çox ciddi problemlər yaşanmaqdadır. Bu sahədə nəzarət mexanizmi o qədər də güclü deyil. O səbəbdən yeni tikilmiş binalarda mərkəzi istilik sistemi təmin edilməyib. Yeni qanunun əsas məqsədlərindən biri bundan sonra mərkəzləşdirilmiş istilik təchizat sisteminin təmin edilməsidir”.

N.Həmzəyev düşünür ki, yeni qanun vətəndaşlar üçün sərfəlidir: “Qanun layihəsi çox mütərəqqidir. Olduqca müsbət yanaşmalar var. Xeyli problemlər aradan qaldırılacaq. Ümid edirik ki, bu sistem yeni yanaşmalarla qurulacaq. Çünki belə olmazsa, subsidiyalara ehtiyac olacaq. Bu isə hökumətin yükünü artıracaq. Yeni texnologiyalara əsaslanan istilik sistemləri quraşdırılmalıdır ki, vətəndaşların ödəyəcəkləri pul hazırda istilik üçün ödədikləri sərfiyyata yaxın olsun. Çalışmalıyıq ki, vətəndaşların büdcəsinə xeyir etsin”.




## MƏHƏLLƏ TİPLİ İSTİLİK SİSTEMLƏRİ OLACAQ

Deputatın sözlərinə görə, qanun qüvvəyə mindikdən sonra tikilən binalarda məhəlli tipli sistem mərkəzləşdirilmiş istilik sistemləri yaradılacaq: “Mərkəzi istilik sisteminin quraşdırılması mümkün olan yerlərdə həyata keçiriləcək. Yeni tikiləcək binalara aid olacaq. İstilik sistemləri ya mərkəzi, yaxud da komplekslər üzrə ola bilər. Daha böyük əraziləri əhatə edən istilik sistemlərinin quraşdırılması uyğun deyil. Çünki yenidən boruların çəkilməsi, baş verə biləcək qəzalar, problemlər nəzərə alınmalıdır. O səbəbdən məhəllə tipli istilik sistemlərinin quraşdırılmasına üstünlük veriləcək”.

### “KOMBİ SİSTEMLƏRİNƏ NƏZARƏT ARTIRILMALIDIR”

N.Həmzəyevin fikrincə, bu sistemlərin qurulması ilə bir çox problemlər aradan qalxacaq: “İlk növbədə təhlükəsizlik təminatı güclənəcək. Pərakəndə şəkildə istiliklə təchizat əlavə təhlükəsizlik problemləri ortaya çıxarır. Standartlara cavab verməyən sistemlər quraşdırılır. Burada kombilər və onlara yaxın cihazlar nəzərdə tutulur. Bu cihazla qazla işlədiyindən təhlükəlidir. Kombidən çıxan qazlar eyvandan digər mənzillərə dolur.

Ümumiyyətlə, mənzillərdəki kombi sistemlərinə nəzarət artırılmalıdır. Bazarda standartlara cavab verməyən, yaxud köhnə üsullarla hazırlanmış cihazlar var. Vətəndaşlar markaya, görüntüyə aldanaraq hətta baha qiymətə alırlar. Sərfiyyat baxımından da xərcə düşürlər. Quraşdırılmasında da standartlar olmalıdır. Yalnız standartlara cavab verən şirkətlər bu işlə məşğul olmalıdır”.

Müsahibimizin sözlərinə görə, qanunda təkcə mərkəzləşdirilmiş istilik sistemlərinə deyil, başqa məsələlərə də toxunulub: “Binalar tikilən zaman izolyasiya sistemləri düzgün quraşdırılmırsa, binaların fasadı düzgün formalaşdırılmırsa, tələblərə cavab verən tikinti materiallarından istifadə edilmirsə, bu, daha çox sərfiyyata səbəb olur. Nəticədə mənzilləri qızdırmaq daha da çətinləşir. Ona görə də binalar tikilərkən standartlara cavab verən izolyasiya sistemləri quraşdırılmalıdır, fasadlarda da standartlara cavab verən materiallardan istifadə edilməlidir. Əgər bunlara əməl olunarsa, vətəndaşların istilik üçün çəkdikləri xərclər də azalacaq”.

### “HƏR MƏHƏLLƏDƏ QAZANXANA OLMALIDIR”

Kommunal xidmətlər üzrə ekspert Nüsrət Qasımovun sözlərinə görə, müasir dövrdə yenidən mərkəzi istilik sistemlərinin quraşdırılması çətin olardı: “Bu, iqtisadi cəhətdən də səmərəli deyil. Yenidən mərkəzi istilik sistemləri quraşdırmaq üçün hər məhəllədə qazanxana qurulmalıdır. Qazanxanaların borularının keçməsi üçün yerlər də məhduddur. Sovet dövründə doqquz istilik qazanxanası tikilmişdi. Onlardan altısı ləğv olunub, cəmi üçü qalıb. Onları da təmir etmək mümkün deyil. Çünki borular yerin altındadır. Bütün hər yer asfalt örtüyüdür. Yolların yenidən qazılması isə mümkünsüzdür”.

N.Qasımovun fikrincə, deyilənlərin əksinə, kombi sistemləri daha sərfəli və təhlükəsizdir: “Mərkəzi istilik sistemi müəyyən vaxt aralığında fəaliyyət göstərir. Kombini isə vətəndaş istədiyi zaman qoşa bilir. Olduqca ağıllı cihazlardır, avtomatik tənzimlənir. Yanma prosesi tam getdiyi üçün dəm qazı ayrılması qeyri-mümkündür. Amma istilik qazanxanalarında tam yanma təmin olunmur. Əvvəlki illərdə bir neçə dəfə qazanxanalarda partlayış hadisələri baş verib”.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
24 MAY ŞƏNBƏ 2025





# ZİRVƏDƏN AŞAĞI BAXANDA...

Vəfa Musayeva sadəcə bir ad deyil, o, iradənin, inadın və milli qürurun simvoluna çevrildi. Bir neçə gün əvvəl o, Azərbaycanın adını səma ilə yer arasında, 8848 metrlik yüksəkliyə - Everestə yazdı.

Bəzən bir qadının addımı bir millətin tarixində iz qoyur. Bu dəfə o addım dünyanın ən yüksək nöqtəsinə - buludların toxunmadığı zirvəyə doğru idi. Vəfa Musayeva sadəcə bir ad deyil, o, iradənin, inadın və milli qürurun simvoluna çevrildi. Bir neçə gün əvvəl o, Azərbaycanın adını səma ilə yer arasında, 8848 metrlik yüksəkliyə - Everestə yazdı. Bu, həm də Azərbaycanın alpinizm tarixində qadın imzası ilə yazılan ən parlaq səhifədir. Yer kürəsinin ən yüksək zirvəsi sayılan Everest əsrlər boyu insan ruhunun sınaq meydanı olub. Himalay dağ silsiləsinə aid olan bu zirvə Nepal və Çin sərhədində yerləşir və 8848 metrlik hündürlüyü ilə dünyadakı ən ekstremal coğrafi nöqtə hesab olunur. Hər il yüzlərlə alpinist bu zirvəyə çatmaq üçün cəhd edir. Lakin bir çox hallarda bu, onların sonuncu ekspedisiyası olur. Çünki sərt iqlim, oksigen çatışmazlığı, şaxtalı fırtınalar və buzlaq uçqunları səbəbilə bu yol həm fiziki, həm də psixoloji baxımdan ölüm-dirim mübarizəsinə çevrilir.

Everestə qalxmaq sadəcə bir dağa dırmaşmaq deyil. Bu, insanın öz fiziki gücünə, ruhuna və təbiətin qüdrətinə qarşı göstərdiyi dözümlülük imtahanıdır. Ona görə də Everestin hər bir uğurlu fəthi, idmandan çox, bir həyat fəlsəfəsi, iradənin və inamın qələbəsi kimi qiymətləndirilir.

### İSRAFİL AŞURLININ AÇDIĞI CIĞIR

Everesti ilk fəth edənlər 1953-cü ilin 29 mayında yeni zelandiyalı Edmund Hillari və nepallı Tensinq Norgey olublar. Azərbaycanlılar üçün bu zirvəyə gedən yol isə İsrafil Aşurlı ilə başlayıb. O, 2007-ci ildə Everestə qalxaraq, ölkəmizin adını bu nəhəng zirvədə yazan ilk azərbaycanlı olub. Onun ardınca Murad Aşurlı (Rusiya və ABŞ vətəndaşı kimi) 2013-cü ildə, Vadim Vokryaçko isə 2019-cu ildə zirvəyə çatmağı bacarıb. 2023-cü ildə Ukrayna vətəndaşı olan azərbaycanəsilli Elmira Aslanova Everest zirvəsinə qalxaraq, Azərbaycan mənşəli ilk qadın kimi tarixə düşüb. Lakin o, başqa bir ölkənin vətəndaşı kimi ekspedisiyada iştirak etmişdi.



İsrafil Aşurlı



Foto: Rüfət Mikayılov - Global Photostock

## İLK AZƏRBAYCANLI QADIN

Vəfa Musayeva dünyanın ən hündür zirvəsini fəth edən ilk Azərbaycan vətəndaşı qadın kimi tarixə düşdü. O, mayın 15-də Everestə qalxmaq missiyasını uğurla tamamladı. Bununla kifayətlənməyən qadın alpinist 48 saat sonra planetin dördüncü yüksək zirvəsi sayılan Lhotseni fəth etməyi bacardı. Vəfa Musayevanı Elmira Aslanovadan fərqləndirən məqam isə onun məhz Azərbaycan alpinizmini təmsil etməsidir.

Vəfa Musayeva uzun illərdir alpinizmlə məşğuldur. Onun izləri Qafqazın sərt qayalarından tutmuş Asiyanın çətin dağlarına qədər uzanır. Lakin Everest hər bir alpinistin ən böyük arzusudur. Buz fırtınaları, oksigen çatışmazlığı, yorğunluq və təhlükəli yamaclara baxmayaraq, o, bu zirvədə Azərbaycanın adını ucaltmağı bacardı.

### "BU ZİRVƏLƏRƏ XƏYALLARIMDA MİLYON DƏFƏ ÇIXIB-DÜŞMÜŞƏM"

Everesti necə fəth etdiyini ən yaxşı şəkildə alpinistin özü izah edir. Vəfa Musayeva hətta orada olarkən belə özünü xəyallarda hiss etdiyini söyləyir: "Bəlkə də çalışmalarım ona görə bəhrə verdi ki, bu zirvələrə xəyallarımda milyon dəfə çıxıb-düşmüşəm. Yolları təhlil etmişəm, necə gedəcəyimi, özümü hansı şəkildə aparmalı olduğumu planlaşdırmışam. Fikrimdə o qədər canlandırmışdım ki, Everestə çatanda elə bildim yenə xəyallardayam. Real olduğunu anlayandan sonra məndə emosional partlayış baş verdi. Hətta yanımdakı xarici vətəndaşdan soruşdum ki, "bu, Everestdir?" O da əli ilə gözümün yaşını silib dedi ki, "bəli, bura Everestdir". Zirvəyə fiziki şəkildə çıxmadan öncə dəfələrlə mənəvi baxımdan oraya gedib-gəlirdim. Ona görə də Everest ekspedisiyasına yollananda zirvəni görəcəyimə əmin idim".

Vəfanın bu sözləri göstərir ki, bəzən ən böyük zəfərlər öncə xəyallarda başlanır. Qalanı iradə və inamın üzərinə düşür.

## ZİRVƏNİ BİZƏ YAXINLAŞDIRAN QADIN



Bu nailiyyətin arxasında böyük bir zəhmət, fiziki və mənəvi dözümlülük dayanır. Onun Everestə dırmanması sadəcə bir idman hadisəsi deyil, həm də qadınların istənilən sahədə uğur qazana biləcəyini sübut edən simvolik addımdır. Everest zirvəsi uzaq və əlçatmaz görünə bilər. Lakin Vəfa Musayeva bu məsafəni azaldıb, zirvəni bir az daha yaxınlaşdırdı. O göstərdi ki, azərbaycanlılar dünyanın ən çətin coğrafiyalarında belə iz buraxa bilirlər. Vəfa Musayevanın uğuru gənclərə, xüsusilə qızlara yeni hədəflər seçmək üçün stimul olacaq. Bəlkə də illər sonra başqa bir azərbaycanlı qız Vəfanın iziylə gedib yeni zirvələri fəth edəcək. Vəfa Musayeva zirvələri yaxınlaşdırdı. Bu, bir insanın uğuru yox, bir millətin gücünün dağlara həkk olunmuş simvoludur.